9 oktyabr 2024 №75 (2140) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

# Azərbaycan MDB daxilində əməkdaşlığa böyük əhəmiyyət verir

## Laçının "MDB-nin mədəniyyət paytaxtı" elan edilməsi Azərbaycan xalqı tərəfindən minnətdarlıqla qarşılanıb

Oktyabrın 8-də Moskvada MDB Dövlət Başçıları Şurasının iclası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşılayıb. Birgə foto çəkdirilib.

Əvvəlcə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası olub.

İclasda çıxış edən Prezident İlham Əliyev diqqətə çatdırıb ki, MDB Humanitar Əməkdaşlıq Şurasının qərarına əsasən, Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhəri 2025-ci ildə "MDB-nin mədəniyyət paytaxtı" elan edilib.

"Laçın Azərbaycanın otuz ilə yaxın müddətdə Ermənistanın işğalı altında olmuş şəhərlərindən biridir və demək olar ki, tamamilə dağıdılmışdı. Bu gün Laçın artıq bərpa olunub. Burada yeni həyat başlayıb, keçmiş məcburi köçkünlər qayıdıblar. Laçının "MDB-nin mədəniyyət paytaxtı" elan edilməsi həm laçınlılar, həm də bütün Azərbaycan xalqı tərəfindən böyük minnətdarlıqla qarşılanıb", – deyə İlham Əliyev bildirib.

Dövlətimizin başçısı qeyd edib ki, növbəti il Azərbaycan III MDB Oyunlarına da ev sahibliyi edəcək. Gəncə şəhəri "MDB-nin idman paytaxtı" olacaq. Yarışlar Azərbaycanın 10-dan çox şəhərində keçiriləcək.

Prezident həmçinin xatırladıb ki, bir aydan sonra Bakı ən böyük beynəlxalq tədbirə – COP29 iqlim konfransına ev sahibliyi edəcək: "Biz 200-ə yaxın ölkənin bu konfransın Bakıda keçirilməsi haqqında yekdil qərarını bütün dünya ictimaiyyətinin Azərbaycana hörmətinin əlaməti kimi qiymətləndiririk".

MDB dövlət başçılarının iclasında İkinci Dünya müharibəsində Qələbənin 80 illiyi ilə bağlı müraciətin qəbul ediləcəyini deyən Prezident İlham Əliyev bildirib ki, Azərbaycan ümumi qələbəmizə sanballı töhfə verib: "Həmin dövrdə 3 milyon 400 min əhalisi olan Azərbaycandan cəbhəyə 700 minə yaxın insan yollanıb. Döyüş meydanlarında 350 min nəfər həlak olub, 130 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Müharibə illərində Azərbaycan neftçiləri cəbhəyə neft və neft məhsullarının 80 faizini, hərbi texnika üçün yağların 96 faizini tədarük edib... Azərbaycanda 130 növdən çox silah, sursat və texnika istehsal edilirdi... Bakıda 41 hərbi hospital fəaliyyət göstərirdi, 440 min yaralı müalicə alırdı. 1942-ci ildə Taqanroq adı ilə tanınan 416-cı Azərbaycan atıcı diviziyasının döyüşçüləri Şimali Qafqazdan başlayan döyüş yolunu Berlində başa çatdırdılar. Azərbaycan atıcı diviziyası 1945-ci il aprelin 21-də birincilər sırasında Berlinin girəcəyinə daxil oldu...".

Dövlətimizin başçısı vurğulayıb ki, 9 May – ümumi Qələbəmiz MDB-yə üzv dövlətlərin gələcək əməkdaşlığının mühüm amilidir. Azərbaycan bu əməkdaşlığa böyük əhəmiyyət verir və bundan sonra da qarşılıqlı fəaliyyətimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verəcək.

İlham Əliyev çıxışında Rusiya-Azərbaycan münasibətlərinin müttəfiqlik xarakterini vurğulayıb və bildirib ki, əldə olunmuş razılaşmaların həyata keçirilməsi gələcəkdə münasibətlərin ardıcıl inkişafına xidmət edəcək.

Azərbaycan rəhbəri, həmçinin Tacikistan Respublikasının növbəti il MDB-də sədrliyə başlaması münasibətilə Prezident Emoməli Rəhmona uğurlar arzulayıb.



***

Sonra MDB Dövlət Başçıları Şurasının iclası işini geniş tərkibdə davam etdirib.

Rusiya Prezidenti Vladimir Putin MDB ölkələri arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini bildirib.

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko 1941–1945-ci illər müharibəsində Qələbənin 80 illiyi ilə bağlı MDB xalqlarına və dünya ictimaiyyətinə birgə müraciəti oxuyub.

Çıxışlardan sonra sənədlər imzalanıb. Bununla da MDB Dövlət Başçıları Şurasının iclası başa çatıb.

# Kitabların hamısını oxumağa ömür çatmasa da...

## Ramiz Rövşən yeni "Nəfəs"lə oxucuların görüşünə gəlib

Oktyabrın 8-də X Bakı Beynəlxalq Kitab Sərgisi başa çatıb. Bir həftə ərzində zəngin proqramı olan sərginin sonuncu günündə də maraqlı təqdimatlar olub. Onlardan biri də Xalq şairi Ramiz Rövşənin "Nəfəs" kitabının təqdimatıdır. Kitablar kitabı "Nəfəs"in yeni nəşrini oxucular çoxdan gözləyirdi.



Təqdimat zamanı şair kitablarla ünsiyyətin daha səmimi olduğunu qeyd edərək deyib: "Kitab oxuyan insanın öz dünyası olur, o, başqalarının həyatına qarışmır. Mən lap uşaqlıqdan yeməyi belə kitab oxuya-oxuya yeyirdim. Mənim üçün ən kədərli hal odur ki, kitabxanama baxanda oradakı kitabların hamısını oxumağa ömrümün çatmayacağını anlayıram. Kitabların heç 40 faizini belə oxuya bilməmişəm, lakin onlar hər zaman mənə dayaq olub. Mən Fyodor Dostoyevskinin "Cinayət və cəza" əsərini, o cümlədən Füzulini, Sabiri, Səməd Vurğunu, Məmməd Arazı, Bəxtiyar Vahabzadəni oxumasaydım, bugünkü Ramiz Rövşən ola bilməzdim. Odur ki, kitab sərgisi, mənim düşüncəmə görə, çox dəyərlidir".

R.Rövşən gənclərə, məktəblilərə bədii ədəbiyyatı orta məktəbin son sinfinə qədər oxumağın daha məqsədəuyğun olduğunu tövsiyə edib.

"Biz öz yaddaşımızın məhsuluyuq. Hər kəsin yaddaşının ədəbiyyatla zənginləşməsini arzulayıram. Ümid edirəm ki, yaddaşınıza mənim də şeirlərim həkk olunub", – deyə o əlavə edib.

Şair şeirlərindən bir neçəsini söyləyib, oxucuların suallarını cavablandırıb və kitablarını onlar üçün imzalayıb.

# "Tağıyev: neft" – kinotetralogiyanın ilk bölümü böyük ekranda

Kinosevərlərin çoxdan maraqla gözlədikləri gün yetişdi. Böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətindən bəhs edən "Tağıyev: neft" bədii filmi tamaşaçı ilə görüşdü. Oktyabrın 4-də Heydər Əliyev Mərkəzində ekran işinin premyerası oldu.

Təqdimat mərasimində layihənin rəhbəri və prodüseri, Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva, Heydər Əliyev, dövlət rəsmiləri, mədəniyyət xadimləri iştirak edirdi.

Ekran əsəri Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Kino Agentliyinin dəstəyi ilə Bakı Media Mərkəzi tərəfindən lentə alınıb. Filmin baş prodüseri Arzu Əliyeva, prodüseri Orman Əliyev, rejissoru Zaur Qasımlı, ssenari müəllifləri İsmayıl İman, Asif İsgəndərli və Zaur Qasımlı, operatoru Vladimir Artemyev, rəssamı Səbuhi Atababayev, geyim rəssamı Vüsal Rəhim, bəstəkarı Etibar Əsədlidir.

Xalq artistləri Pərviz Məmmədrzayev, Qurban İsmayılov (Tağıyev), Əməkdar artistlər Rasim Cəfər, Elşən Rüstəmov və Natəvan Hacıyeva daxil olmaqla geniş peşəkar aktyor heyəti filmdə tarixi personajları canlandırıb.




Əvvəlcə iştirakçılar mərkəzin foyesində filmin çəkilişi zamanı istifadə olunan geyim və tarixi əşyaların sərgiləndiyi guşə, eləcə də ekran əsəri haqqında məlumatla tanış oldular.

davamı səh. 5-də

# Günəşli payızda Cəbrayıl Şəhəri Günü






"Təyyarəmiz Füzuli Beynəlxalq Hava Limanına enir. Havanın temperaturu müsbət 13 dərəcədir...". Bəlkə də, əksər sərnişinlər kapitanın bu elanının ikinci cümləsini xoş qarşılamadı. Oktyabrın 4-ü, payızın bir ayı tamam olmamış bu temperatur paytaxtdan gedənlər üçün qış havası sayıla bilərdi. Amma hava gəmisindən enərkən temperatur 13 yox, 23 dərəcə təsiri bağışladı. Sanki mayın əvvəlləri, bir yaz səhəriydi...

Yaz səhəri demişkən, əslində, 44 günlük Vətən müharibəsinin ilk qazi şəhəri Cəbrayıl bu günlərdə özünün baharını yaşayır. 31 illik ayrılıqdan sonra sakinlər doğma yurda qayıdırlar. Ziyarət dağının ətəyində qərar tutan, 27 il sürən işğal zamanı düşmən tərəfindən yerlə yeksan edilən şəhər hazırda böyük quruculuq meydanına çevrilib. Onlarla ailənin yurd nisgilinə son qoyulub, digər sakinlərin də mərhələli şəkildə qayıdışına hazırlıq görülür...

Füzuli aeroportunda əyləşdiyimiz avtobuslar yüksək keyfiyyətlə çəkilmiş yolla Cəbrayıla doğru şütüyür. Zaman bir göz qırpımında keçir. Daha bir təpəni aşırıq və şəhərin yeni salınan yaraşıqlı binaları görünür. Cəbrayıl şəhərindəyik. Bu qədim yurd yeri Azərbaycanın ən yeni tarixində təqvimə düşən şanlı günlərdən birində – Cəbrayıl Şəhəri Günündə qonaqlarına qucaq açır. Düz dörd il öncə bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Azərbaycan Ordusu Cəbrayıl şəhərini və rayonun bir neçə kəndini işğaldan azad etmişdi. Cəbrayılın qurtuluşu digər şəhər və kəndlərimizin də azad olunacağının müjdəçisi idi.

44 ilə bərabər o 44 gündə xalqımıza zəfər soraqlı xəbərləri şəxsən özü çatdıran Ali Baş Komandan tarixi Qələbəmizi əbədiləşdirmək və işğaldan azad edilmiş şəhərlərin günlərini təsis etmək məqsədilə 31 iyul 2023-cü il tarixində sərəncam imzaladı. Sərəncamla 4 oktyabr Cəbrayıl Şəhəri Günü elan olundu. Təqvimimizin bu günü əbədi olaraq Cəbrayılın qurtuluşu ilə anılacaq...

***

Cəbrayıl şəhərində, sözün əsl mənasında, bayram ab-havası var. Bir tərəfdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhərdə inşa olunan yaşayış kompleksinin açılışını edir. Yeni evlərə köçən sakinlərə mənzillərin açarları təqdim olunur. Bir tərəfdə də Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Cəbrayıl Şəhəri Gününün geniş konsert proqramına son hazırlıqlar görülür.

davamı səh. 3-də

# 7-ci ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı başa çatıb

Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin təşkilatçılığı ilə reallaşan "Baku Cinema Breeze" (BCB) Festivalı (2–8 oktyabr) çərçivəsində Bakıda 7-ci ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı keçirilib.



Mövzusu "Sevgi" olan budəfəki festival üç əsas (müsabiqə, müsabiqədənkənar və peşəkarlar üçün) proqramdan ibarət olub. Müsabiqə proqramına 18 ölkədən 48 film seçilib. Filmlər həm beynəlxalq münsiflər heyəti, həm də tamaşaçılar tərəfindən qiymətləndirilib. Qaliblər festivalın təntənəli bağlanış mərasimində təltif olunublar.

səh. 2



## Gəncə teatrı "Toros canavarı"nı İstanbulda göstərib

səh. 3



## Sənətşünas alimin 70 illiyi qeyd olunub

səh. 5

# “Bu gözəl binalarda yaşamaq sizin haqqınızdır, siz buna layiqsiniz”

## Prezident Cəbrayılda Azərbaycanın bədxahlarına da mesaj verdi: “Bizim dostumuz odur ki, bu günə sevinir...”

Azad edilmiş torpaqlarda aparılan işlər öz miqyasına görə xüsusi xarakter daşıyır. Heç bir başqa yerdə işğaldan, müharibələrdən əziyyət çəkmiş ölkələr bu sürətlə və bu keyfiyyətlə bərpa işlərini bu günə qədər aparmamışlar. Çünki bu işlər geniş-miqyaslı və çox dəqiq planlar əsasında görülür. Hər bir şəhərin baş planları təsdiq edilib. Hər bir kəndin bütün lazımi infrastrukturu nəzərdə tutulur.

Prezident İlham Əliyev bu sözləri oktyabrın 4-də Cəbrayıl şəhərində inşa olunan yaşayış kompleksində sakinlərlə görüşdə çıxışı zamanı deyib.

Prezident diqqətə çatdırıb ki, işğaldan azad edilən yerlərin yenidən qurulması, sakinlər üçün evlərin inşası ilə yanaşı, onların məşğulluğu üçün də işlər görülür. O cümlədən Cəbrayıl rayonunda yeni müəssisələrin təməli qoyulub: “Orada işləyənlərin əksəriyyəti Cəbrayıla qayıdan və qayıdacaq keçmiş köçkünlər olmalıdır. Yəni, həm yaşayış yerləri, həm bütün infrastruktur – su, qaz, elektrik enerjisi, yollar, məktəblər, xəstəxanalar, eyni zamanda, məşğulluq...”.

Dövlətimizin başçısı bildirib ki, Azərbaycanın öz gücünə gördüyü bu işləri gözləri götürməyənlər də var. “Bugünkü gün anti-Azərbaycan qüvvələr üçün yas günüdür, matəm günüdür. Yəni, necə ola bilər ki, bizim icazəmiz olmadan Azərbaycan öz hüququnu bərpa etdi, heç kimdən soruşmadan, heç kimdən qorxmadan, heç kimi saymadan. Öz gücü hesabına, öz övladlarının fədakarlığı hesabına. Bunu bizə bağışlaya bilmirlər və bu gün Azərbaycana Amerikadan sanksiya tətbiq edilir. Ondan sonra da deyirlər ki, gəlin, dostluğumuzu möhkəmləndirək. Hansı dostluqdan söhbət gedə bilər? Bizim dostumuz odur ki, bu günə sevinir. Mən bunu bir neçə gün bundan əvvəl demişəm. Bu günə məyus olan və bu günü qəbul etməyən heç vaxt bizim dostumuz ola bilməz, bunu Azərbaycan xalqı bilməlidir... Ancaq biz öz gücümüzə arxalanmalıyıq və heç bir vədlərə, heç bir şirin sözlərə, yalançı ifadələrə aldanmamalıyıq”.

Prezident qeyd edib ki, otuzillik işğalın nəticəsi olan dağıntılar, təbii ki, bir müddətdən sonra sökülməcək, bunların yerində yeni binalar inşa ediləcək. Ancaq bu mənzərə heç vaxt bizim yadımızdan çıxmamalıdır: “Çünki bu işlərdə təkcə Ermənistan günahkar deyil.



Əlbəttə, Ermənistan əsas günahkardır. Amma o günahı bölüşənlər onların arxasında o vaxt da, bu gün də duranlardır. Bu gün Ermənistanı silahlandıran Qərb ölkələri görəsən nə fikirləşirlər? Hesab edirlər ki, biz buna göz yumacağıq?... Heç kim bizi çəkindirə bilməz. Biz öz gələcək inkişafımızı, təhlükəsiz həyatımızı təmin etməliyik və təmin edəcəyik! Mən Ermənistana da bax, burada, dağıntılar arasında xəbərdarlıq edirəm: dayandırın bu təhlükəli oyunları! Bir tərəfdən sülhdən danışırlar, yalan-palan danışırlar, digər tərəfdən genişmiqyaslı silahlanma gedir. Silahları da kim verir onlara? Fransa və onun kimi anti-Azərbaycan ölkələr. O silahlar nə üçün onlara pulsuz verilir? Yəni, dediyim kimi, şəhər-kəndlərimizi yenə də bax, bu vəziyyətə salmaq üçün. Nə qədər çalışsalar da, heç nə alınmayacaq...”.

“Ermənistan təhlükəli oyunlara qoşulub və İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmasın... Antiterror əməliyyatı onların yadından çıxmasın” deyən İlham Əliyev xatırladıb ki, əgər Cəbrayılı, şəhəri azad etmək üçün bizə bir həftə lazım idisə, Qarabağı 44 günə azad etmişiksə, separatçıların yuvası olan o bölgələri cəmi bir neçə saat ərzində azad etmişik: “Bizimlə heç kim zarafat etməsin və səbrimizlə də oynamasın. Mən bu sözləri istənilən yerdə deyə bilərdim. Çünki yenə də deyirəm, Azərbaycan xalqına həmişə həqiqətləri deyirəm, fikirlərimi deyirəm.

Dünyada vəziyyət dəyişir. Əlbəttə ki, bizim də hadisələrə münasibətimiz adekvat olmalıdır. Ancaq hesab etdim ki, mən bu sözləri bax, bu dağıntılar və bu gözəl binalar arasında deməliydim ki, onu həm Azərbaycan xalqı eşitsin, həm bizim dostlarımız eşitsin və bir daha bizim Qələbəmizə sevinsin, düşmənlərimiz də eşitsin və düzgün nəticə çıxarsın”.

Azərbaycan Prezidenti sonda Cəbrayıla, doğma torpağına qayıtmış sakinlərə xitabən deyib: “Sizə burada xoşbəxt həyat arzulayıram. Siz buna layiqsiniz. Siz uzun illər çadırlarda, qaçqın düşərgələrində yaşamısınız. Biz imkan daxilində çalışmışıq ki, həyatınızı bir az yüngülləşdirək. Burada artıq 100-dən çox insan məskunlaşıb, bu gün də, dünən də gələnlər var. Onlardan bir hissəsi Biləsuvardakı qaçqın şəhərciyində yaşamışdır. Yəqin ki, mənim o şəhərciyə gəlişimi xatırlayan da var. Birinci dəfə 20 il bundan əvvəl orada olmuşam. Çalışmışıq ki, yeni mənzillər, yeni evlər tikək və təqribən 300 minə yaxın, bəlkə də çox keçmiş köçkün 2020-ci ilə qədər normal şəraitlə təmin edilmişdir. Ancaq ondan da çox insan ağır vəziyyətdə yaşamışdır. Ona görə bu gözəl binalarda yaşamaq sizin haqqınızdır, siz buna layiqsiniz. Əminəm ki, bu torpaqlarda yaşamış və oradan köçmüş, eyni zamanda, bu torpaqları heç vaxt görməmiş sizin uşaqlarınız, nəvələriniz burada rahat və xoşbəxt yaşayacaq, öz dövləti ilə, xalqı ilə həmişə fəxr edəcəkdir”.

# Moskvada Rusiya və Azərbaycan prezidentlərinin görüşü olub

## Dövlət başçıları iki həftə sonra Kazanda da bir araya gələcəklər

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün oktyabrın 7-də Rusiya Federasiyasının paytaxtı Moskvaya gedib.



Səfər zamanı, oktyabrın 8-də Moskvada dövlətimizin başçısının Rusiya Prezidenti Vladimir Putinlə görüşü olub.

Prezident İlham Əliyevi və Azərbaycan nümayəndə heyətini salamlayan Vladimir Putin deyib: “Mənim Bakıya səfərim (bu ilin avqust ayında – red.) zamanı razılaşdığımız kimi bu gün görüş keçirirk. Dünən axşam da qeyri-rəsmi təmasımız olub, münasibətlərimizin hazırkı statusu ilə bağlı məsələlərə bu və ya digər dərəcədə toxunduq.

Dərhal qeyd etmək istərdim ki, münasibətlər müsbət inkişaf edir, biz bunu hələ Azərbaycana səfər zamanı bildirmişdik: əmtəə dövriyyəsi 4 dəfədən çox – 4,3 milyard dollardır. Bizim Azərbaycan iqtisadiyyatına birbaşa investisiyalarımız dörd milyard dollardan çoxdur. Energetika sahəsində də, infrastrukturun inkişafı üzrə də çoxlu yaxşı, maraqlı layihələr var. Onların hamısı perspektivlidir, realdır, həm ikitərəfli, həm də çoxtərəfli layihələr aktualdır”.

Prezident İlham Əliyev çıxışının əvvəlində oktyabrın 7-də 72 yaşı tamam olan Vladimir Putini doğum günü münasibətilə təbrik edib. Rusiya Prezidentinin avqust ayında Bakıya dövlət səfərindən sonra ikitərəfli münasibətlərdəki dinamikanı qeyd edən İlham Əliyev deyib: “Əldə olunmuş qərarların yerinə yetirilməsi çərçivəsində artıq müxtəlif strukturların nümayəndələri səviyyəsində, hökumət üzvləri arasında çoxlu təmaslar olub. Bu gün həmin məsələləri nəzərdən keçirmək üçün yaxşı imkan var, çünki gündəliyimiz kifayət qədər genişdir və həmin layihələr, xüsusən avqust ayında Bakıda nəzərdə tutduqlarımız, əlbəttə ki, bizim daimi diqqət və nəzarətimizi tələb edir”.

Vladimir Putin Azərbaycan rəhbərini oktyabrın 23-24-də Kazanda BRICS xətti ilə keçiriləcək BRICS + tədbirlərində gözlədiyini bildirərək orada da faydalı görüşlər keçiriləcəyini deyib: “Əlbəttə ki, biz BRICS-lə əməkdaşlıq etməyə çalışan çox sayda ölkəni dəvət edirik. İyirmi beş həmkarımız öz iştirakını təsdiq edib. Zənnimcə, bu həm faydalı, həm də maraqlı olacaq. Sizi Kazanda gözləyirik”.

Prezident İlham Əliyev dəvəti məmnuniyyətlə qəbul etdiyini və Azərbaycanın öz iştirakını təsdiq etmiş 25 ölkə arasında olduğunu deyib.

# Vyanadakı mədəniyyət mərkəzimiz “Muzeylərin uzun gecəsi”ndə

Vyanada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) oktyabrın 5-də Avstriya Teleradiosunun (ORF) təşəbbüsü ilə keçirilən ənənəvi “Muzeylərin uzun gecəsi” layihəsində iştirak edib.



Avstriyanın 700-dən çox muzey və mədəniyyət müəssisəsinin qatıldığı gecədə AMM tərəfindən “Naxışların rəqsi” adlı sərgi təqdim olunub.

Sərgidə Azərbaycanın ilk süni zəka sənətçisi adını daşıyan “Şuşa xanım” layihəsi çərçivəsində milli motivlərlə işlənmiş kələğayılar nümayiş olunub.

Layihənin rəhbəri – İstanbul Rəqəmsal İncəsənət Festivalının direktoru Nabat Qaraxanova, festivalın bədii rəhbəri Esra Özkan və AMM-in əməkdaşları sərgiyə gələn qonaqlar üçün ekskursiya keçiriblər. Bildirilib ki, “Naxışların rəqsi” üçün tekstil məmulatların üzərində süni intellektdən istifadə etməklə 3D simvollar yaradılıb və sərgidə təqdim olunan kələğayılar yeni moda növünün yaranmasına töhfə verməklə yanaşı, həm də sənət əsərləridir.

Qeyd olunub ki, Şuşa şəhəri tarixən ölkəmiz üçün mədəniyyət baxımından müstəsna əhəmiyyət daşıyıb. Şuşadan bir çox məşhur incəsənət xadimləri, musiqiçilər, ədiblər və rəssamlar çıxıb, ona görə də layihə rəhbərləri canlandırdıqları ilk süni zəka rəssamını “Şuşa xanım” adlandırıblar. “Şuşa xanım” süni zəka layihəsi Azərbaycanın minilliklərin yaddaşından axıb gələn zəngin maddi mədəni irsini, adət-ənənələrini və mənəvi dəyərlərini innovativ texnologiyaların köməyi ilə gələcək nəsillərə bir miras kimi ötürmək üçün uğurlu vasitədir.

AMM-də uşaqlar üçün “Tıq-tıq xanım” nağılının motivləri əsasında kukla tamaşası da nümayiş etdirilib.

# 7-ci ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı başa çatıb

Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin təşkilatçılığı ilə reallaşan “Baku Cinema Breeze” (BCB) Festivalı (2–8 oktyabr) çərçivəsində Bakıda 7-ci ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı keçirilib.

Mövzusu “Sevgi” olan budəfəki festival üç əsas (müsabiqə, müsabiqədənkənar və peşəkarlar üçün) proqramdan ibarət olub.

Seçim komissiyasının qərarı ilə müsabiqə proqramına 18 ölkədən 48 film seçilib. 12 film yerli, 36 film isə beynəlxalq kateqoriyalarda yarışıb. Filmlər həm beynəlxalq münsiflər heyəti, həm də tamaşaçılar tərəfindən qiymətləndirilib.

Qaliblər 7-ci ANİMAFİLM Beynəlxalq Animasiya Festivalının təntənəli bağlanış mərasimində “Sevgi” mükafatı ilə təltif olunublar.

“Ən yaxşı qısametrajlı animasiya filmi – Qran pri” nominasiyası: “Pear Garden” (“Armud bağı”) filmi; rejissor Shadab Shayegan, Almaniya.

“Ən yaxşı qısametrajlı animasiya filmi – Qran pri” nominasiyasında xüsusi mükafat: “The Family Portrait” (“Ailə portreti”) filmi; rejissor Lea Vidakovic, Xorvatiya.

“Ən yaxşı qısametrajlı uşaq animasiya filmi – Qran pri” nominasiyası: “The Night Tunnel” (“Gecə tuneli”) filmi; rejissor Annechien Strouven, Belçika.

“Ən yaxşı qısametrajlı uşaq animasiya filmi – Qran pri” nominasiyasında xüsusi mükafat: “Baking With Boris” (“Boris ilə çörək bişirmək”) filmi; rejissor Maša Avramović, Fransa.

“Tamaşaçı rəğbəti” mükafatı: “İnanna”; rejissor Rüstəm Bəşirov, Azərbaycan.

“Ən yaxşı qısametrajlı Azərbaycan animasiya filmi (Annecy-yə səyahət mükafatı)” nominasiyası üzrə: “Çox düşünərkən”; rejissor Zəhraxanım Quluzadə.



“Ən yaxşı qısametrajlı Azərbaycan animasiya filmi” nominasiyasında xüsusi mükafat: “Zamanın arxasınca”; rejissorlar Ayla Qasımova, Si Yi Lee (ABŞ).

Azərbaycan Animasiya Assosiasiyasının xüsusi mükafatları: “Ən yaxşı qısametrajlı animasiya filmi” – “Wild Animal” (“Vəhşi heyvan”); rejissor Tianyun Lyu (Çin) və “Ən yaxşı qısametrajlı uşaq animasiya filmi”: “Puddle” (“Gölməçə”); rejissorlar Maria-May Backhaus Brown, Mads Theodor Bonde (Danimarka).

Bağlanış mərasimi zamanı, həmçinin “Narqız” animasiya filminin treylerləri, Ayan Novruz və Dante Rustav tərəfindən keçirilən animasiya vörkşopları nəticəsində çəkilmiş iki tələbə animasiya filmi nümayiş olunub.

Müsabiqədənkənar proqramda tamaşaçılar “Dünya ölkələrindən sevgilərlə” proqramı çərçivəsində Çexiya, Portuqaliya, Yunanıstan, Gürcüstan kimi ölkələrin animasiya əsərlərini, həmçinin Türk Animasiya Assosiasiyası ilə əməkdaşlıq çərçivəsində təqdim olunmuş “Türk dünyasından seçilmiş animasiya filmləri” kolleksiyasını izləyiblər. Tamaşaçılara Azərbaycanda ilk dəfə məşhur Avropa müəlliflərinin əsərləri əsasında çəkilmiş animasiya silsiləsindən olan “Qırmızı dəmir yolu” serialı təqdim olunub.

Proqram çərçivəsində tamaşaçılara yerli animasiya film layihələri təqdim olunub, beynəlxalq münsiflər heyəti ilə görüşlər təşkil edilib.

# Bakıda Türk Dünyası Beynəlxalq Animasiya Festivalı da keçirilib



Mədəniyyət Nazirliyinin təşkilatçılığı və Azərbaycan Respublikası Kino Agentliyinin dəstəyi ilə keçirilən “Baku Cinema Breeze” (BCB) festivallar festivalının daha bir tədbiri Türk Dünyası Beynəlxalq Animasiya Festivalı olub.

TÜRKSOY və Türk Animasiya Assosiasiyası (Association of Turkic Animation – ATA) tərəfindən təşkil olunan bu tədbirin məqsədi türkdilli dövlətlər arasında animasiya sənəti vasitəsilə əməkdaşlığı və mədəni mübadiləni təşviq etməkdir.

Festivalın açılış mərasimində TÜRKSOY-un baş katibinin müşaviri Kayrat Mukanov qeyd edib ki, belə tədbirlər birgə layihələri dəstəkləməklə yanaşı, kino sənayesi bazarını müəyyənləşdirən prodüserlərin mübadiləsinə və birgə layihələrin dəstəklənməsinə zəmin yaradacaq.

Türk dünyasında animasiya film sənayesinin inkişafına verdiyi töhfəyə görə Məsud Pənahi, Elçin Axundov (hər ikisi Azərbaycan), Mavzur Mahmudov (Özbəkistan), Salimgali Mirzaşev (Qazaxıstan), Kanybek Omurbekov (Qırğızıstan), Mojek Charyyev (Türkmənistan), Berat İlk (Türkiyə) festivalın xüsusi mükafatları ilə təltif olunublar.

Onlar təşkilatçılara, onların əməyini unutmayan hər kəsə təşəkkürlərini bildiriblər.

Festival çərçivəsində tanınmış animasiya filmləri rejissoru Dmitri Visotski və ATA-nın sədri Oktay İyusibov “Beynəlxalq bazar üçün animasiya seriallarının yaradılması” mövzusunda görüş keçirib, beynəlxalq tərəfdaşlarla ATA çərçivəsində animasiya seriallarının birgə istehsalının yaradılması məsələlərini müzakirə ediblər.

“Türk dövlətlərində animasiyanın inkişafı” mövzusunda keçirilən dəyirmi masa çərçivəsində TÜRKSOY ölkələrində animasiya sənayesi, yaradıcı sənayelərin inkişafında dövlət orqanlarının rolu, birgə istehsal haqqında normativlər və s. məsələlər, “Kreativ Sənaye Parkı”nın yaradılmasında Qırğızıstanın təcrübəsi, Azərbaycanın Yaradıcı Sənayelər və Rəqəmsal İnkişaf Mərkəzinin yaradılması təcrübəsi, o cümlədən dövlət dəstəyi, vergi güzəştləri, subsidiyalar, müəllif hüquqları ilə bağlı məsələlər müzakirə edilib.

“Azərbaycan” kinoteatrında “ATA: Türk dünyasının ən yaxşı animasiya filmləri”nin təqdimatı olub. “Türk dünyası: Animasiya səhnələri” adlı fotosərgidə türk xalqlarının klassik animasiya filmlərindən storyboardlar, xarakter eskizləri və arxa fonlar nümayiş etdirilib.

# Günəşli payızda Cəbrayıl Şəhəri Günü

əvvəli səh. 1-də

Paytaxtdan gəlmiş mədəniyyət, elm və ədəbiyyat xadimləri, bədii kollektivlər, media mənsubları qarşılaşdıqları mənzərə barədə təəssüratını bölüşür, bu şəhərdə doğulub boya-başa çatmış insanlar xatirələrini dilə gətirirlər.

Mədəniyyət naziri Adil Kərimli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev, digər rəsmilər də uzun illərdən sonra doğma şəhərlərinə gəlmiş insanların sevincinə şərik olur, bu yurdun səfalı təbiəti, aparılan quruculuq işləri ilə bağlı söhbət açırlar.

Cənuba əyilmiş payız günəşi də parlaq şəfəqləri ilə Cəbrayılın növrağına öz töhfəsini verir, bu qədim elin qonaqlarını isti qarşılayır.

Əvvəlcə tədbir iştirakçıları şəhərin yenidən qurulan mərkəzi meydanında bir neçə hissədən ibarət sərgi ilə tanış olurlar.

***

Azərbaycan Fotoqraflar Birliyinin dəstəyi ilə hazırlanan “Zamanın qanadlarında. Cəbrayıl” adlı fotosərgi, həqiqətən, ziyarətçiləri öz qanadlarında keçmişə – ötən əsrin ikinci yarısına, buralarda həyatın qaynadığı dövrə aparır. Rayonun mədəni həyatı, tarixi abidələri, bir vaxtlar barı, bərəkəti ilə ölkəmizdə tanınan təsərrüfat sahələrindən fotoobyektivin yaddaşına köçmüş kadrlar nümayiş olunur. Stenddə eyni zamanda rayonun düşməndən azad olunduqdan sonrakı dirçələn həyatı əksini tapıb.

“Yurdum. Cəbrayıl” adlı rəngkarlıq sərgisində Cəbrayıla ezam olunan rəssamların, həmçinin yerli rəssamların yaratdığı əsərlərdə rayonun rənglərə bürünmüş keçmişi və bu günü təqdim olunur. “Xubyarlı türbəsi” (R.Aslanova), “Qarabağın günəşi” (N.Familsoy), “Cəbrayıl xalçaları” (F.Abbasquluzadə), “Qoca çinar” (M.Kərimov), “Xudafərin” (Z.Babayeva) və digər əsərlər ideya-bədii cəhətdən diqqətəlayiq nümunələrdir.

Cəbrayıl rayonu öz xalçaları ilə də məşhurdur. Azərbaycan Milli Xalça Muzeyinin daimi kolleksiyasından ənənəvi üsulla toxunan xalçalar və xalça məmulatları təqdim edilir. Burada Cəbrayılın “Qasımuşağı”, “Qaraqoyunlu”, “Bəhmənli”, “Çələbi” və s. qədim xalçalarının replikaları nümayiş etdirilir.





“İrsimiz. Ruhumuz. Xudafərin” adlı sərgi xüsusilə maraq doğurur. Cəbrayılın rəmzi sayılan Xudafərin körpüləri əsrlər boyu Arazın iki sahilini birləşdirən tarixi tikililər olub. Körpülər Orta əsr Azərbaycan memarlığının mühüm elementlərini əks etdirir. Sərgidə 11 aşırımlı Xudafərin körpüsünün kiçik modeli rəssamlar tərəfindən işlənirdi. Körpünün qədim tarixi ilə yanaşı, burada rəssamların özünəməxsus üslubu və tərzi də nümayiş olunur. 11 aşırım modelini qırmızı xətt qismində birləşdirən ümumi motiv Azərbaycan kəlağayısıdır. Bu seqment milli irsimizin incə nümunəsini göstərməklə bərabər, tarixi İpək Yolunun inkişafında Xudafərin körpülərinin əhəmiyyətini də vurğulayır. Burada görkəmli xalçaçı-rəssam Fazil Abbasquluzadə, Əməkdar rəssam Vüqar Əli və başqaları Xudafərin körpüsü kompozisiyası üzərində həvəslə işləyirdilər.

Sərgi məkanında qurulmuş xüsusi bir guşədə isə poeziya nümunələri söylənilir, musiqilər səsləndirilirdi. Şair-dramaturq İlqar Fəhminin ssenarisi üzrə Şuşa Dövlət Musiqili Dram Teatrının təqdim etdiyi Cəbrayıl ədəbi-mədəni mühitinə həsr olunmuş kompozisiyada yurda bağlılığı, Vətən oğullarının fədakarlığını əks etdirən ədəbi nümunələr təqdim olunurdu.

Sərgidə “Ekosfera” Sosial Ekoloji Mərkəzi tərəfindən uşaqlar üçün ustad dərsləri də təşkil olunmuşdu. Mərkəzin əməkdaşları uşaqlara tarix və mədəniyyət abidələrimizin maketlərinin hazırlanması, eksponatların bərpası və rəsm çəkməyin sirlərini öyrədirdilər.

***

Sərgilərlə tanışlıqdan sonra geniş konsert proqramı təqdim olundu.

Aparıcılar Vətən müharibəsi haqqında məlumat verdi, Azərbaycan Ordusunun 44 gündə qazandığı Zəfərin tariximizə qızıl hərflərlə yazıldığını, xalqımıza əbədi qürur bəxş etdiyini vurğuladılar.

Ana yurdun tərənnümü əsasında qurulan proqramda ilk olaraq Azərbaycan Dövlət Rəqs Ansamblı “Qarabağ” rəqsini ifa etdi. Xalq Çalğı Alətləri Orkestri Vasif Adıgözəlovun “Bayram süitası”nı, Əməkdar artist Yaqut Abdullayeva Bəhram Nəsibovun “Qarabağ” nəğməsini, Əməkdar artist İlkin Əhmədov “Azərbaycan maralı” xalq mahnısını, aşıq Aqşin Tarıyeloğlu “Ovşarı” saz havasını, xanəndələr Vüsal Zamanov, Güllü Muradova və Rəvanə Qurbanova “Qarabağ şikəstəsi”ni, Əməkdar artistlər Gülüstan Əliyeva Məmmədbağır Bağırzadənin “Cəbrayıl”, Zahid Quliyev İbrahim Topçubaşovun “Dağlarda duman gözəldir” mahnılarını səsləndirdilər.







Həmçinin müğənni İlhamə Qasımova bəstəkar Elza İbrahimovanın “Ey Vətən”, Taleh Hüseynli Elnur Şahmarovun “Cəbrayılım”, Xalq artisti Azər Zeynalov Fikrət Əlizadənin “Vətənim”, Sona Əzizova “El bilir ki, sən mənimsən” (S.Vurğunun “Azərbaycan” şeirindən parça musiqi aranjimanında), “Sazəndə” aşıqlar qrupu Dirili Qurbaninin “Bayatı-şikəstə”, Xalq artisti Samir Cəfərov Cavanşir Quliyevin “Bura vətəndir”, “Renessans” uşaq xoru Rauf Hacıyevin “Azərbaycan” mahnılarını oxudular.

Yenidən səhnədə görünən Azərbaycan Dövlət Rəqs Ansamblı bu dəfə “Zəngəzur yallısı” rəqsi ilə tamaşaçıların zövqünü oxşadı.

Xalq artisti Mələkxanım Əyyubova Rauf Məmmədovun “Yaşa, mənim xalqım” mahnısı ilə konsertin son akkordlarını vurdu. Bütün ifalar alqışlarla qarşılandı.

***

Günün ikinci yarısında Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrının repertuarından “Qaraca qız” tamaşası (S.S.Axundov, A.Şaiq) nümayiş olundu. Səhnə əsərinin quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimova, rejissoru Əməkdar artist Nofəl Vəliyev, rəssamı Nisə Hətəmova, musiqi tərtibatçısı isə İradə Muradovadır.

Akademik Musiqili Teatr isə Cəbrayıl Şəhəri Gününə Ü.Hacıbəylinin ölməz “Arşın mal alan” tamaşasını ərməğan etdi. Tamaşanın quruluşçu rejissoru Elvin Mirzəyev, quruluşçu dirijoru Əməkdar incəsənət xadimi Nazim Hacıəlibəyov, quruluşçu rəssamı Əməkdar artist Nabat Səmədovadır.

Cəbrayıl Şəhəri Günü tədbirləri Azərbaycan Dövlət Rəqs Ansamblının (bədii rəhbər – Xalq artisti Rüfət Xəlilzadə) möhtəşəm konserti ilə başa çatdı.

Konsert və tamaşalar, sərgilər doğma yurdda yenicə məskunlaşan, sevinc içində olan Cəbrayıl sakinləri və digər qonaqların könlünü oxşadı. Bütün tamaşaçıların, ələlxüsus da, cəbrayıllıların baxışlarında torpaqlarımızı yağıdan azad edən şəhidlərimizin əziz xatirəsinə dərin ehtiram və qazilərimizə minnətdarlıq duyğusu aşkar hiss olunurdu. Elə biz mətbuat nümayəndələrinin də...

**Fariz Yunisli**
**Bakı-Cəbrayıl-Bakı**

# Bakı Beynəlxalq Film Festivalında 26 ölkə təmsil olunub






Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin (ARKA) dəstəyi ilə 2–8 oktyabr tarixlərində keçirilən “Baku Cinema Breeze” (BCB) festivallar festivalına bu il 15-cisi təşkil edilən Bakı Beynəlxalq Film Festivalı da daxildir.

Oktyabrın 5-də Nizami Kino Mərkəzində XV Bakı Beynəlxalq Film Festivalının açılışı olub.

Festivalın direktoru Fehruz Şəmiyev bildirib ki, ötən illər ərzində festival çox istedadlı insanları böyük auditoriyaya tanıdıb. Festival bundan sonra da auditoriyasını genişləndirməyi hədəfləyir.

ARKA-nın direktoru vəzifəsini icra edən Əməkdar incəsənət xadimi Orxan Fikrətoğlu deyib: “Kinematoqrafiyanın inkişafına təkan verən hər bir festivalı alqışlayırıq. Çox şadıq ki, belə uğurlu layihələrdən biri də 15 illik böyük yol qət etmiş bugünkü festivaldır. Bu festivalın ənənəvi olaraq keçirilməsində əməyi olan hər kəsə təşəkkür edirəm”.

O diqqətə çatdırıb ki, Gənc Kinematoqrafçılar Mərkəzi tərəfindən 2004-cü ildə təsis edilən festival əvvəlki illərdə “START” adı ilə fəaliyyət göstərib və ölkəmizin ən uzunömürlü festivalıdır.

Sonra festivalın fəxri “Qızıl nar” mükafatı Xalq artistləri Həmidə Ömərova və Şükufə Yusupovaya təqdim olunub.

Bildirilib ki, builki festival çərçivəsində ümumilikdə 26 ölkəni təmsil edən 79 film Nizami Kino Mərkəzində nümayiş olunacaq.

Qeyd edilib ki, yubileyinə yeniliklərlə gələn festival bu ildən tammetrajlı filmlərin müsabiqəsini də keçirir. Festivalın yerli müsabiqəsinə qısametrajlı bədii, sənədli filmlər və sosial çarxlar qəbul olunub. Ümumilikdə yerli müsabiqə proqramında 25 ekran əsəri var.

Festivalın proqramına “TRT Sinema”nın müdiri Faruk Güvənin təqdimatı, “Birgə film istehsalı” mövzusunda fikir mübadiləsi, “Kömür” filminin Azərbaycan premyerası, ustad dərsləri, film nümayişlərindən sonra müəlliflərlə müzakirələr də daxildir.

Bakı Beynəlxalq Film Festivalının dəstəkçiləri sırasında Nizami Kino Mərkəzi, “Azərbaycanfilm” kinostudiyası, Dövlət Film Fondu, “British Council” və Azərbaycan Prodüserlər Gildiyası yer alır. Media dəstəkçiləri arasında “Mədəniyyət” qəzeti də var.

Beynəlxalq jüri isə Siddiq Barmak, Mahmut Fazıl Coşkun, Can Özbatur, İsmayıl Monsef, Yevgeni Mayzel, Eldar Yoldaşev, Zümrə Ərtürk kimi tanınmış simalardan ibarətdir.

Səhnəyə dəvət olunan münsiflər heyətinin üzvləri festivalın işinə uğurlar arzulayıblar. Sonra festivalın filmlərindən fraqmentlər göstərilib.

*Festival haqqında daha ətraflı növbəti sayımızda.*

# Milli Kitabxanada “Macarıstan ədəbiyyatı guşəsi”

X Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində Milli Kitabxanada “Macarıstan ədəbiyyatı guşəsi”nin açılışı olub.



Mərasimdə Milli Kitabxananın direktoru professor Kərim Tahirov, Macarıstan Milli Kitabxanasının direktor müavini xanım Judit Gerencser çıxış ediblər.

Qeyd edilib ki, indiyədək kitabxanada 13 ölkənin ədəbiyyat guşələri yaradılıb. İndi bu sıraya Macarıstanın ədəbiyyatı guşəsi də əlavə olunur. Oxucular burada Macarıstan Milli Kitabxanasının digər elektron resurslarından da istifadə edə biləcəklər.

“Macar kitab guşəsi mədəni diplomatiya sahəsində də böyük bir addımdır, çünki bu, Macarıstanın mədəniyyətini və dəyərlərini Azərbaycana təqdim etməyə olan bağlılığı göstərir. Bu təşəbbüs Macarıstan-Azərbaycan mədəni əlaqələrinin güclənməsinə müsbət təsir edəcək. Bu gün açılan kitab guşəsi mədəniyyətlərarası dialoq və əməkdaşlığa uzunmüddətli bir öhdəlikdir. Gələn ilin əvvəlində Macarıstanda da “Azərbaycan ədəbiyyatı guşəsi” açılacaq”, – deyə xanım Gerencser bildirib.

Tədbirdə Macarıstanın Azərbaycandakı səfirliyinin birinci katibi Monika Ferföldi də iştirak edib.

Sonda qonaqlara kitablar və xatirə hədiyyəsi təqdim edilib.

# “Sənətkarın dostu” layihəsində daha bir görüş




Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) təşkilatçılığı, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin dəstəyi ilə “Sənətkarın dostu” layihəsi çərçivəsində növbəti görüş keçirilib.

Oktyabrın 3-də Əhməd Bakıxanov adına 6 nömrəli Uşaq musiqi məktəbində təşkil olunan görüşdə tanınmış kamança ifaçıları – Xalq artisti Şəfiqə Eyvazova, həyat yoldaşı Əməkdar incəsənət xadimi, professor Arif Əsədullayev və qızları Mehri Əsədullayeva iştirak ediblər.

MEMİM-in direktor vəzifəsini icra edən Vüqar Hümbətov iştirakçıları salamlayaraq layihənin gənclərlə peşəkar sənət nümayəndələri arasında körpü rolu oynadığını vurğulayıb.

Görüşdə kamança aləti və onun ifaçılıq ənənələri, milli musiqi mədəniyyətinin inkişafında kamançanın rolu, insan təbiətinə təsiri və gənclərin musiqi zövqünün formalaşdırılması istiqamətində söhbət aparılıb.

Səmray Əliyevanın moderatorluğu ilə keçirilən tədbirdə Rəşid Behbudov adına 2 nömrəli onbirillik Musiqi məktəbinin 10-cu sinif şagirdi Ceyhun Aslanlı və qonaqların ifasında müxtəlif musiqi əsərləri təqdim olunub.

Sonda Arif Əsədullayev kamança aləti ilə bağlı kitablarını MEMİM-ə hədiyyə edib.

“Sənətkarın dostu” layihəsinin məqsədi mədəniyyətin təşviqi, görkəmli mədəniyyət xadimlərinin bilik və təcrübəsini gənc istedadlarla bölüşməsinə şərait yaradılması, uşaq və gənclərin yaradıcılığının stimullaşdırılmasıdır.

# Gəncə teatrı “Toros canavarı”nı İstanbulda göstərib

Xəbər verdiyimiz kimi, 1 oktyabr – 1 noyabr tarixlərində İstanbulda keçirilən VI Maltəpə Beynəlxalq Teatr Festivalına Gəncə Dövlət Milli Dram Teatrı da dəvət alıb.



Avrasiya Teatrlar Birliyi (ATB) və Maltəpə Bələdiyyəsinin birgə keçirdiyi festivala Gəncə kollektivi türk yazıçı-dramaturqu Əziz Nesinin “Toros canavarı” pyesi əsasında hazırlanan tamaşanı aparıb. Səhnə işi oktyabrın 4-də Türkan Saylan Mədəniyyət Mərkəzində nümayiş olunub.

Səfər haqqında danışan teatrın aktyoru və ATB-nin Azərbaycan təmsilçisi Yusif Cəfərovun sözlərinə görə, 500 nəfərlik tamaşaçı zalında bütün biletlər satılmışdı. Tamaşaçıların alqışları səhnə işinin uğurlu alınmasının sübutu idi.

Xatırladaq ki, tamaşanın quruluşçu rejissoru Maltəpə Bələdiyyə Teatrının baş rejissoru, ATB-nin baş katibi Kubilay Erdelikara, rejissoru Yusif Cəfərov, quruluşçu rəssamı Mustafa Mustafayevdir.

Rolları Əməkdar artistlər İlham Hüseynov, Sevda Orucova, Novruz Cəfərov, Ramiz Vəliyev, aktyorlar Günay Cabbarova, Samir Abbasov, Akif Səfərov, Emil Salmanov, Elmir Məmmədov və Həsən Cəfərov ifa edirlər.

Məlumat üçün deyək ki, budəfəki festivalda 11 ölkədən ümumilikdə 29 teatr 32 tamaşa ilə təmsil olunur.

# "Səhnəmizin balaca ulduzları"

## Qəbələ Xalq teatrının tamaşası

İsmayıl bəy Qutqaşınlı adına Qəbələ Xalq teatrı dram dərnəyinin üzvləri və Qəbələ rayon 1 saylı klub tərəfindən rayon Mədəniyyət Mərkəzində "Səhnəmizin balaca ulduzları" adlı tamaşa nümayiş olunub.



Tamaşanın hazırlanmasında əsas məqsəd Xalq teatrının inkişafına təkan vermək, gənc aktyorları teatrın səhnəsinə cəlb etmək olub.

Tamaşanın təşkilatçısı dram dərnəyinin rəhbəri Nihad Cəlilzadə çıxış edərək Xalq teatrının fəaliyyətində gənc aktyorların rolunu vurğulayıb.

"Molla Nəsrəddin" lətifələri, həmçinin Nizami Gəncəvinin "Kərpickəsən kişinin dastanı" hekayəti əsasında ərsəyə gətirilən "Səhnəmizin balaca ulduzları" tamaşası maraqla qarşılanıb.

Nümayişdən sonra Qəbələ Xalq teatrının rejissor və aktyor heyəti gənc aktyorları təbrik edib, müvafiq tövsiyələrini bildiriblər.

İştirakçılar Qəbələ rayon Mədəniyyət Mərkəzinin fəxri fərmanı ilə təltif olunublar.

# Ağdam teatrının "Trombonçu"su Lənkəranda

Ağdam Dövlət Dram Teatrının yaradıcı heyəti qarşılıqlı qastrol səfəri proqramlarına uyğun olaraq, oktyabrın 4-də Lənkərana səfər edib.



Kollektiv Lənkəran Dövlət Dram Teatrı səhnəsində italyan dramaturqu P. de Filipponun "Don Rafaello-trombonçu" əsəri əsasında hazırlanan "Trombonçu" tamaşasını göstərib.

Səhnə əsərinin (tərcümə Şövqi Hüseynov) quruluşçu rejissoru Racu Şıxlı, quruluşçu rəssamları Qönçə Həzizadə və Müşfiq Qarayev, işıq üzrə rəssamı Anar Şükürov, musiqi tərtibatçıları Aysel Əzizova və Azər Şükürovdur.

Rolları Elşən Cavadov, Afərdə Sabirqızı, Zərifə Ağayeva, Hakim Cəfərli, Camal Zamanov, Rüstəm Məmmədov və Anar Əhməd ifa edirlər.

Qeyd edək ki, Lənkəran teatrı da ötən ay (27 sentyabr) Ağdamda olmuş, Qarabağ müharibəsindəki tarixi Zəfərimizdən bəhs edən "Haqqın 44 günü" tamaşasını təqdim etmişdi.

# "Cahana sığmayan şair"

Bu il dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin (1369–1417) anadan olmasının 655 illik yubileyidir.



Bu münasibətlə Sumqayıt şəhər Gənclər Kitabxanasında 5 saylı tam orta məktəbin müəllim və şagird heyətinin iştirakı ilə "Cahana sığmayan şair" adlı ədəbi-bədii gecə keçirilib.

Tədbirdə çıxış edən kitabxananın müdir vəzifəsini müvəqqəti icra edən Leyla Mahmudova şairin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verib. Qeyd edib ki, İmadəddin Nəsimi Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına salınıb.

Şairin həyat və yaradıcılığını əks etdirən "Əbədiyyət üfüqlərində doğan eşq günəşi" adlı sərgidə nümayiş olunan kitabların xülasəsi verilib.

5 saylı tam orta məktəbin şagirdləri Nəsiminin qəzəllərini söyləyib, şairin Sumqayıtda yerləşən heykəli haqqında məlumatı diqqətə çatdırıblar.

Tədbir iştirakçıları ssenari müəllifi İsa Hüseynov, rejissoru Həsən Seyidbəyli olan "Nəsimi" (1973) filmindən fraqment izləyiblər.

Sonda L.Mahmudova Nəsiminin "Hardasan?" qəzəlini qiraət edib.

# "Yaşıl dünya naminə qlobal çağırış"

Masallı rayon Mərkəzi Kitabxanasında "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar "Yaşıl dünya naminə qlobal çağırış" adlı tədbir keçirilib.



Kitabxananın əməkdaşlar Günay Xəlilova və Rəşad İsmayılov qlobal iqlim dəyişmələrinin yaratdığı fəsadlardan bəhs ediblər. Qeyd olunub ki, dünyada yaşanan ekoloji problemlərin əsasında məhz bu kimi amillər dayanır və həmin təsirlər Azərbaycandan da yan keçmir. Azərbaycanda ətraf mühit problemlərinin həlli istiqamətində genişmiqyaslı işlərin görülməsi və ekoloji vəziyyətin yaxşılaşdırılmasına yönəlmiş dövlət siyasəti ölkənin dayanıqlı inkişaf strategiyasının mühüm tərkib hissəsidir.

Diqqətə çatdırılıb ki, 1992-ci ildə qəbul olunmuş BMT-nin İqlim Dəyişmələri haqqında Çərçivə Konvensiyası ekoloji problemlərin həlli istiqamətində dünya ölkələri qarşısında böyük tələblər qoyub. Azərbaycan da öz növbəsində bu çağırışlara hər zaman həssaslıq göstərib. Bu ilin noyabr ayında Bakıda keçiriləcək COP29 beynəlxalq iqlim konfransı ölkəmiz üçün yaşıl enerji növlərinin yaradılmasının və onun dünya bazarına nəqlinin prioritet olduğunu bir daha nümayiş etdirəcək.

# "Keçmişin əmanətçisi, gələcəyin qurucusu"

## Bölgələrdə Beynəlxalq Müəllimlər Günü qeyd olunub

Quba-Xaçmaz Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı (RMİ) ilə Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının Uşaq şöbəsi tərəfindən 5 oktyabr – Beynəlxalq Müəllimlər Günü ilə əlaqədar "Ən şərəfli peşə" adlı tədbir keçirilib.






Qeyd edilib ki, əlamətdar gün UNESCO-nun qərarı ilə 1966-cı ildə təsis edilib. Təşkilat tərəfindən müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd də qəbul olunub.

Bildirilib ki, vətənpərvər oğulların yetişməsində müəllimlərin çox böyük rolu var. 44 günlük Vətən müharibəsi başlayan gündən 760 nəfər təhsil işçisi könüllü şəkildə döyüşlərə qoşularaq torpaqlarımızın işğaldan azad olunması uğrunda müharibədə fəal iştirak ediblər. Onlardan 20 nəfəri şəhidlik zirvəsinə ucalıb, onlarla döyüşçü qazi olub.

Tədbir çərçivəsində fəal oxucular müəllimə, məktəbə, elmə, təhsilə həsr edilmiş şeirlər söyləyiblər. Kitabxana əməkdaşlarının təşkil etdikləri "Ən şərəfli peşə" başlıqlı sərgiyə baxış olub.

***

Şəki-Zaqatala RMİ-nin tabeliyində fəaliyyət göstərən musiqi və incəsənət məktəblərində, həmçinin Qazax-Tovuz RMİ-nin tabeliyində fəaliyyət göstərən Uşaq musiqi məktəblərində Beynəlxalq Müəllimlər Günü münasibətilə silsilə tədbirlər keçirilib. Tədbirlərdə müəllimlərin ifasında müxtəlif janrlarda musiqilər səsləndirilib, çıxış edənlər bu günün yaranma tarixindən və müəllimlik peşəsinin, nə qədər çətin olsa da, bir o qədər şərəfli peşə olmasından danışıblar.

***



Astara rayon Mərkəzi Kitabxanasında Beynəlxalq Müəllimlər Günü ilə əlaqədar tədbir təşkil edilib. Uşaq şöbəsinin fəal oxucularının iştirak etdiyi tədbirdə çıxış edənlər əlamətdar günün tarixindən söz açıblar. Bildirilib ki, müəllim dünyada yeganə şəxsiyyətdir ki, cəmiyyət özünün gələcəyini, uşaqların tərbiyəsini yalnız ona etibar edir. Sonda balaca oxucular tərəfindən şeirlər səsləndirilib.

Astara rayon Heydər Əliyev Mərkəzində də əlamətdar gün qeyd olunub. Tədbirdə "Ulu öndər Heydər Əliyev müəllimlər haqqında" adlı film nümayiş olunub. İştirakçılar rəssamlıq dərnəyi şagirdlərinin əl işlərindən və mərkəzin elektron kitabxanasında saxlanılan kitablardan ibarət sərgiyə də baxıblar.

***




Naxçıvan MR Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Filarmoniyasında "Müəllim – keçmişin əmanətçisi, gələcəyin qurucusu" adlı konsert proqramı keçirilib.

Nazirliyin İncəsənət və təhsil müəssisələri ilə iş şöbəsinin müdiri Həcərxanım Məmmədova çıxış edərək deyib ki, Ümummilli lider Heydər Əliyevin Azərbaycan təhsilinə göstərdiyi yüksək diqqət və qayğı bu gün də uğurla davam etdirilir.

Daha sonra konsert proqramı təqdim olunub. Uşaq musiqi məktəblərinin müəllimləri tərəfindən Vasif Adıgözəlovun "Qərənfil", Səid Rüstəmovun "Hardasan?", Hacı Xanməmmədovun "Yaşa, könül", Edith Piafın "La foule" və digər musiqi nümunələri ifa edilib. Konsert tamaşaçılar tərəfindən alqışla qarşılanıb.

***

Beynəlxalq Müəllimlər Günü münasibətilə Naxçıvan Dövlət Universitetində (NDU) tədbir keçirilib.

Universitetin rektoru Elbrus İsayev professor-müəllim heyətinin timsalında bütün pedaqoqları təbrik edib, müəllim əməyinin, zəhmətinin əhəmiyyətindən söz açıb. Tarix üzrə fəlsəfə doktoru, dosent, 54 illik pedaqoji təcrübəsi olan İsmayıl Zeynalov və NDU-nun ən gənc pedaqoqu Aygün Yusifova ürək sözlərini bölüşüblər.

Universitetin İncəsənət fakültəsi ilə Musiqi kollecinin hazırladığı musiqi proqramı təqdim olunub.

**Hazırladı: N.Məmmədli**

# Gəncə Dövlət Filarmoniyasının layihələri davam edir

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının təqdim etdiyi "Gəncə və gəncəlilər" layihəsi çərçivəsində tanınmış müğənni, Xalq artisti Şahnaz Haşımovanın yaradıcılıq gecəsi keçirilib.



Tədbirdə Azərbaycan Milli Konservatoriyasının rektoru Xalq artisti Siyavuş Kərimi, Azərbaycan Dövlət Akademik Musiqili Teatrının direktoru Əməkdar incəsənət xadimi Əliqismət Lalayev və başqaları çıxış edərək müğənninin sənət yolundan söz açıblar.

Gecədə Xalq artistləri Şahnaz Haşımova, Gülyaz Məmmədova, Əməkdar artistlər Aybəniz Haşımova, Tural Abdullayev, sənətkarın tələbəsi Fəxri Kazım-Nicat, solist Zəminə Mustafayeva, aşıq İlqar Nəcəfov, Türkiyədən saz ifaçısı Volkan Kaplan "Kəsmə şikəstə", "Oxu, gözəl", "Sənə də qalmaz", "İlk məhəbbət", "Göygölüm", "Qaragilə", "Ana", "Gözəl Gəncəmiz" və "Azərbaycan" mahnılarını ifa ediblər.

Konsertin bədii rəhbəri Sahil Quliyev, kollektiv rəhbəri Xalq artisti Adil Bayramov, baletmeyster Sənan Cavadovdur.

***

Gəncə Dövlət Filarmoniyasının daha bir layihəsi olan "Musiqi kimliyimiz"in növbəti buraxılışı isə Aşıq Molla Cüməyə həsr olunacaq.

Mədəniyyət Nazirliyi, Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi və Azərbaycan Aşıqlar Birliyinin iştirakı ilə həyata keçiriləcək layihə 16-18 oktyabr tarixlərini əhatə edəcək.

Aşıq Molla Cümənin 170 illiyinə həsr olunacaq layihə çərçivəsində konfrans, dastan axşamı, ədəbi-bədii gecə nəzərdə tutulub.

# Regionlardakı ədəbi mənzərəyə "Hophopnamə" töhfəsi

Sabirabadda fəaliyyət göstərən "Hophopnamə" kitab mərkəzi də X Bakı Beynəlxalq Kitab Sərgisində iştirak edib. Sərgi çərçivəsində mərkəzin "Regionlarda ədəbi mənzərə, regiona böyük töhfə – "Hophopnamə" kitab mərkəzi" adlı təqdimat mərasimi keçirilib.




Tədbirdə mədəniyyət xadimləri, yazıçı və şairlər, eləcə də kitabsevərlər iştirak ediblər.

Mil-Muğan RMİ-nin əməkdaşı Ağalar Ağamməmdovun kitab mərkəzinin yaradılması və fəaliyyət istiqamətləri haqqında ətraflı məlumat verib. Bildirilib ki, mərkəzin yaradılmasında məqsəd Azərbaycanda ədəbiyyatın inkişafını təşviq etmək, oxucuları keyfiyyətli elmi və bədii əsərlərlə təmin etmək və zəngin mədəni irsimizi qoruyub yaymaq, mütaliə mədəniyyətinin inkişafına nail olmaqdır.

Yazıçı-dramaturq Elçin Hüseynbəyli, şairlər Fərid Hüseyn, Şəhriyar del Gerani, İbrahim İlyaslı kitab mərkəzini Azərbaycanda mədəniyyətə, maarifçiliyə və kitaba olan marağın artırılması istiqamətində mühüm addım kimi qiymətləndiriblər.

Sonda Mil-Muğan RMİ-nin rəisi Faiq Xudanlı çıxış edərək tədbirə imkan yaradıldığına görə sərginin təşkilatçılarına, eləcə də təqdimata qatılanlara təşəkkürünü bildirib.

# Ukraynalı uşaqlar Qəbələ qoruğunda

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin təşkilatçılığı ilə ölkəmizə gələn bir qrup ukraynalı uşaq Qəbələ Dövlət Tarix-Bədii Qoruğunda olub.

Uşaqlar Qəbələ Arxeoloji Mərkəzində sərgilənən arxeoloji materiallarla, Qəbələnin tarixi, etnoqrafiyası və folkloruna aid kitablar toplusu ilə tanış olublar.

Mərkəzin akt zalında keçirilən görüşdə qoruğun direktoru Zahir Kərimov ukraynalı uşaqlara qoruğun və mərkəzin fəaliyyəti barədə məlumat verib.

Sonra "Qafqaz Albaniyasının paytaxtı – Qəbələ" filmi nümayiş olunub. Çay süfrəsi təşkil olunub, uşaqlara xatirə hədiyyəsi təqdim edilib.

Ukraynalı uşaqlar qoruğun tarixi məkanları – Səlbir və Qala ərazilərindəki arxeoloji qazıntı sahələri ilə də tanış olublar. Onlara arxeoloji ekspedisiya zamanı aşkar olunan tapıntılar barədə ətraflı məlumat verilib.

# Horovlu Cəbrayılın böyük kəndlərindən biri olacaq

Hazırda inşası davam etdirilən və bir neçə aydan sonra sakinlərinə qucaq açacaq yaşayış məntəqələrindən biri də Cəbrayıl rayonunun Horovlu kəndidir. Təməli 2023-cü il mayın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulan kənd yenidən qurulur.



Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri İlhamiyyə Rzayeva bildirib ki, layihələndirilən ümumi ərazi 248 hektardır və perspektivdə kənddə 3470 nəfər olmaqla, 867 ailənin yaşaması nəzərdə tutulub. Birinci mərhələdə Horovluya 1395 nəfərin köçürülməsi planlaşdırılır və artıq 334 fərdi evin hörgü işləri tamamlanıb, hazırda fasad və interyer işləri görülür. İnşa olunan evlər iki, üç, dörd və beş otaqdan ibarətdir. Həmçinin məktəb binası, uşaq bağçası və digər iaşə obyektlərinin tikintisi davam etdirilir. Kəndin dayanıqlı su təchizatını təmin etmək məqsədilə burada əvvəllər mövcud olmuş kəhrizlər də bərpa edilib.

# "Tağıyev: neft" – kinotetralogiyanın ilk bölümü böyük ekranda

## Milli mesenatın həyat yoluna işıq salan bədii film təqdim olundu




*əvvəli səh. 1-də*

"Tağıyev: neft" mesenat, neft milyonçusu Hacı Zeynalabdin Tağıyevin həyat yoluna bədii-sənədli filmin gözü ilə baxmaq imkanı verən kino nümunəsidir.

Böyük insana həsr olunan tetralogiyanın (süjet və müəllif fikri ilə birləşmiş dörd hissədən ibarət əsər) ilk seriyası olan filmdə XIX əsrin sonları – XX əsrin əvvəllərində Bakı və ölkəmizin regionlarında baş verən mühüm tarixi hadisələr də öz əksini tapır.

Biz bioqrafik filmin ayrı-ayrı səhnələrində Azərbaycan tarixinin sırf təsvir olunan mərhələsinin tanıdılması və bu fonda həm də milli dəyərlərimizin təbliğinə verilən önəmi detallı şəkildə görürük.

Epik filmin (böyükmiqyaslı və təsirli panoram təsvirləri özündə cəmləşdirən film çəkilişi tərzi) xüsusiyyətlərini özündə daşıyan ekran əsərinin ən maraqlı cəhəti qəhrəmanın müxtəlif planlarda təqdimatında fərqliliyə cəhd edilməsidir.

Bu da təsadüfi deyil. Xeyriyyəçinin vəfatının 100 illiyinin qeyd edildiyi 2024-cü ildə təqdim olunan film xalqımızın bütün zamanlarda belə mütərəqqi insanlarına dəyər və sevgi ilə yanaşdığını göstərir.

Ekran əsəri Bakıda başmaqçı ailəsində dünyaya gələn və sonrakı milyonçu taleyi ilə öz xalqı üçün böyük işlər görən Tağıyevin həyatının müxtəlif dövrlərinə işıq salır. Onun verdiyi çətin qərarlar, uğur qazanacağına olan inamı, məqsədləri ilə bağlı inadkarlığı, sadə insanlara göstərdiyi dəstək, cəmiyyətin təhsil səviyyəsinin yüksəldilməsi üçün atdığı tarixi addımlar, ilkin uğursuzluqlara, itkilərə, maddi və mənəvi böhranlara rəğmən əzmkarlıqla mücadiləsi fərqli epizodlarla öz əksini tapır.

Bu zaman biz yaxşı həyat yoldaşı, mehriban ata, sadiq dost, imanlı insan, yenilikçi vətəndaş, ədalətli rəhbər Tağıyevi fərqli rakurslarda, müxtəlif vəziyyətlərin tələbi ilə həll olunmuş səhnələrdə görürük. Bu yolla da biz nəinki bir fərd kimi onu, ümumilikdə yaşadığı dövrü də analiz edə bilirik.

Sözsüz ki, filmin sonrakı seriyalarında Tağıyevin müsəlman Şərqində qızların təhsili üçün ilk dəfə xüsusi məktəbin əsasını qoyması, Azərbaycanda neft sənayesinin inkişafına, Bakı şəhərinin zəruri infrastrukturunun yaradılmasına nail olması, eləcə də həyatının müxtəlif məqamlarında – milyonların gəlib-getdiyi illərdə yaşantılarına da nəzər sala biləcəyik. Bunun işartıları




məscidin axundu, dostu, oğlu və eləcə də fəhlələri ilə dialoqlarında, anons kimi də olsa, təsvir həlli vasitəsilə qeyd olunurdu.

Texniki parametrlərinə görə bu bədii film həm də Azərbaycan kino sənayesinin inkişafında da mühüm hadisədir. 76 fərqli məkanda çəkilişləri aparılan ekran əsərinin kütləvi səhnələrində 2500 nəfərə yaxın yaradıcı şəxs iştirak edib. Tarixi səhnələr üçün 300-dən çox dekorasiya hazırlanıb. Tağıyevin yaşadığı dövrü tam əks etdirmək üçün xüsusi geyim emalatxanası yaradılıb, çoxlu sayda libas, aksesuar, zərgərlik nümunələri və xüsusi rekvizitlər ərsəyə gətirilib.

Filmə baxarkən böyük zəhmət, yaxşı təşkilatçılıq, yüksək səviyyədə texniki dəstək bariz hiss olunur. Digər üstün cəhət texniki və yaradıcı heyətdə, əsasən, milli kadrlardan, aktyor heyətindən istifadədir. Bu da onu göstərir ki, istənilən böyükmiqyaslı işi icra edə biləcək təcrübəli kino heyətimiz var.

Film 1922-ci ilin təsviri, Tağıyevin əcnəbi jurnalistə müsahibəsi ilə başlayır. Ssenaristlər bunu fləşbəq metodu (hadisənin yenidən yaşanmasından yaranan intensiv duyğular, təsəvvürlər) ilə çatdırırlar. Ümumiyyətlə, yaradıcı heyət Tağıyevin həyatının həmin dönəmini dolğun şəkildə təqdim edirlər. Ən əsası, bu zaman Tağıyev təkcə texnologiyada, sənayedə inqilabçı kimi yox, həm də münasibətlərində, təfəkküründə yenilikçi, mütərəqqi şəxs kimi göstərilir. Mesenatın təkcə məscidin axundu ilə konfllikti bunu göstərir ki, o, xurafata qarşıdır. Xalqın inkişafını elmdə, təhsildə görür. Buna görə də oğlunun mollaxanada deyil, məktəbdə oxumasını istəyir.



Filmin ilk bölümündə tamaşaçı kimi məni ən çox cəlb edən Tağıyevin daxili dünyasına varmaqla onun xarakterini ayrı-ayrı nümunələrlə açmaq cəhdləri idi.

Məsələn, aclıqdan əziyyət çəkən insanlara anbarlarındakı bütün taxılları paylayır. Hətta bunu elə adi hərəkətlə edir ki, sən onun neft milyonçusu olmazdan əvvəlki sadə tacir səxavətinə, mərhəmətinə heyran olursan. Filmin bir üstün cəhəti də onun sənədli faktlara əsaslanmaqla tamaşaçını təsvirlə təəssürat arasında saxlaması idi.

Nümayişdən sonra filmin yaradıcı heyəti səhnəyə dəvət olundu.

Filmin rejissoru Zaur Qasımlı ekran əsərinin çəkilişlərinə göstərilən dəstəyə görə hər kəsə minnətdarlığını bildirdi, uzun və çətin yolda ona inananları unutmadığını dedi. O, ekran əsərinin çəkilişləri zamanı qarşılaşdıqları çətinliklərdən də söhbət açdı, filmin Tağıyevin şəxsiyyətinə layiq bir iş olması üçün bütün güclərini səfərbər etdiklərini vurğuladı.

Rejissor filmin ərsəyə gəlməsində göstərdiyi hərtərəfli dəstəyə görə Arzu Əliyevaya xüsusi təşəkkürünü bildirdi, yaradıcı heyət adından ona xatirə hədiyyəsi təqdim etdi.

Bildirək ki, tarixi səhnələri və zövqlü bədii tərtibatı ilə diqqətçəkən filmi tezliklə kinoteatrlarda izləmək mümkün olacaq.

**Həmidə Rüstəmova**

# "Palitralar. Bəstəkarlar rəssam kimi"

## Rusiyalı pianoçunun Rəhilə Həsənovanın xatirəsinə həsr olunan konserti

Beynəlxalq Muğam Mərkəzində tanınmış rusiyalı pianoçu Olqa Domninanın "Palitralar. Bəstəkarlar rəssam kimi" adlı konserti keçirildi. Oktyabrın 4-də təşkil edilən musiqi axşamı bu ilin avqustunda dünyasını dəyişən görkəmli Azərbaycan bəstəkarı Rəhilə Həsənovanın (1951-2024) xatirəsinə həsr olunmuşdu.





Konsertdə musiqişünas, professor Zümrüd Dadaşzadə giriş nitqi ilə çıxış etdi.

Gecənin proqramında Rəhilə Həsənova ilə yanaşı, Qara Qarayev, Fərəc Qarayev, Ayaz Qəmbərli və Elmir Mirzəyevin əsərləri də səsləndirildi.

Qeyd edək ki, konsertin əsas xəttini Qara Qarayevin çoxsaylı yetirmələrindən biri, istedadı müəllimi tərəfindən yüksək dəyərləndirilən Rəhilə Həsənovanın əsərləri təşkil edirdi. Z.Dadaşzadə bu barədə danışarkən diqqətə çatdırdı ki, Rəhilə Həsənovanın palitrası qeyri-adi zənginliyi ilə fərqlənir. Belə rəngarəngliyə nail olmaq üçün o, royalın bütün imkanlarından, səs diapazonundan məharətlə bəhrələnir. Bəstəkarın "Çeşmə" silsiləsindən hər bir prelüd nəhəng silsiləyə bir növ proloq olmaqla yanaşı, digər bəstəkar əsərlərinin yeni əlavə mənalarını üzə çıxarmaq, yeni baxış bucağından işıqlandırmaq kimi xüsusiyyət də aşkarlayır.

"Bəstəkarlar rəssam kimi" mövzusuna gəlincə isə, musiqişünas bildirdi ki, Rəhilə Həsənovanın bir sıra əsərlərində arxaik boyaların tüğyan etməsi dünyaşöhrətli rəssam Mark Şaqalın erkən boyakarlıq sənətini xatırlamağa sövq edir: "Əzəmətli Fərəc Qarayev musiqisinin zərif çalarlarında əsl tragizm və sarkazm sezilir ki, bu da istər-istəməz bəstəkarın sevimli rəssamı Rene Magritte ilə uyum yaradır. Elmir Mirzəyevin əsəri Oskar Kokoschka lövhələrindəki "ağır" tutqun boyalarla təsvir edilən ehtirasları musiqi dilinə çevirir. Ayaz Qəmbərli-Egon Schiele qarşılaşması qəfil olsa da, hər ikisini birləşdirən amillər sırasında məkan duyumu və səsin (rəngin) dərinliyinə varmaq kimi keyfiyyətlər dayanır. Beləliklə, Azərbaycan musiqisinin rəng palitrası barədə düşüncələr konsertin konsepsiyasının yaranmasına təsir etdi. Proqramın adı "Palitralar" da buradan qaynaqlanır. Rəhilə Həsənova müsahibələrində Şərq xalçaları və musiqi modulları arasında paralellər aparırdı ki, bu da proqramın əsas məramı ilə çox gözəl səsləşir".

Olqa Domnina məşhur pianoçu, bir çox beynəlxalq müsabiqələrin qalibi, Qnesinlər adına Rusiya Musiqi Akademiyası və London Kral Musiqi Akademiyasının məzunudur. O, solo konsertlərlə yanaşı, kamera və simfonik orkestrlərlə dünya səhnələrində çıxış edir. Musiqiçinin konsert fəaliyyətində Azərbaycan bəstəkarlarının yaradıcılığı böyük yer tutur, onu milli musiqimizin təbliğatçısı da adlandırırlar.

Olqa Domnina on ildən artıqdır Siciliyada (İtaliya) yaşayır, Avropada konsertlər verir. "Palitralar" layihəsi böyük uğurla Palermoda (İtaliya) "Wall of Sound" festivalında, Böyük Britaniyada "Homerton Colleg"də, İsveçdə Milli Festivallar Günündə və Roma Filarmoniyasında (Accademia Filarmonica Romana) ifa olunub.

Onu da qeyd edək ki, Bakı konserti çoxdan planlaşdırılmışdı. Lakin konsertə hazırlıq ərəfəsində, 10 avqust 2024-cü ildə Rəhilə Həsənova əbədiyyətə qovuşdu. Buna görə də Bakıdakı çıxışın formatı və ovqatı da dəyişdi. Musiqi axşamı mərhum bəstəkarın xatirəsinə həsr olundu.

**Lalə**

# Tanınmış bəstəkar-tarzənin yubiley gecəsi

Azərbaycan Dövlət Akademik Filarmoniyasında tanınmış bəstəkar və tarzən, Əməkdar incəsənət xadimi Məmmədağa Umudovun 75 illiyinə həsr edilmiş konsert olub.

Oktyabrın 4-də keçirilən konsertdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri (bədii rəhbər və baş dirijor – Əməkdar artist Fuad İbrahimov) və Azərbaycan Dövlət Xor Kapellasının (bədii rəhbər – Xalq artisti Gülbacı İmanova) ifasında bəstəkarın "Cümhuriyyət marşı", tar və simfonik orkestr üçün "Çahargah" dəsgahı", Cövdət Hacıyevin "Sülh uğrunda" əsərləri səsləndirilib. "Çahargah" dəsgahı" Əməkdar artist tarzən Sahib Paşazadənin ifasında təqdim edilib.



Məmmədağa Umudov 1949-cu ildə Bakının Əmircan kəndində dünyaya göz açıb. Kənddəki Mədəniyyət evində tar dərnəyinə gedib, ilk musiqi müəllimi Sabir Ramazanov olub. 1964-cü ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinə (indiki Musiqi Kolleci) qəbul olur, ixtisas müəllimi Akif Novruzovun, eləcə də muğam müəllimi Kamil Əhmədovun sayəsində tar ifaçılığı sənətinin dərinliklərinə yiyələnir. Ali musiqi təhsilini iki ixtisas üzrə alıb. 1968-ci ildə Asəf Zeynallı adına Musiqi Texnikumunu bitirib. Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) İfaçılıq fakültəsində tar ixtisası üzrə təhsilini davam etdirib. 1973-cü ildə təhsilini başa vurub konservatoriyanın Bəstəkarlıq fakültəsinin II kursuna (Cövdət Hacıyevin sinfi) daxil olub.

70-ci illərdə müstəqil yaradıcılıq yoluna qədəm qoyan bəstəkar musiqinin müxtəlif janrlarında əsərlər yazıb: 3 simfoniya, "Qobustan" simfonik poeması, "Gənclik" uvertürası, fortepiano üçün prelüdlər və sonatina, tar ilə simfonik orkestr üçün "Konsert", solo violin üçün "Sonata", "Balet süitası", xor və simfonik orkestr üçün "Cümhuriyyət marşı", "Çahargah" muğam simfoniyası və s. Azərbaycan xalq və şifahi ənənəli professional musiqisinə xas olan cəhətlər Məmmədağa Umudovun yaradıcılığında mühüm yer tutur.

**L.Azəri**

# Bəstəkarlar İttifaqında sənətşünas alimin 70 illiyi qeyd olunub

Azərbaycan Bəstəkarlar İttifaqının Üzeyir Hacıbəyli adına konsert salonunda Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Akif Quliyevin 70 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib.



İttifaqın sədri Xalq artisti, professor Firəngiz Əlizadə musiqişünas-alimin gördüyü işləri yüksək qiymətləndirərək onu yubileyi münasibətilə təbrik edib.

Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızının aparıcılığı ilə keçirilən tədbirdə Azərbaycan Milli Konservatoriyasının (AMK) rektoru Xalq artisti Siyavuş Kərimi, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının prorektoru Əməkdar incəsənət xadimi Gülnaz Abdullazadə və başqaları yubilyar haqqında fikirlərini bölüşüblər.

Xalq artisti Sərdar Fərəcovun, AMK-nın professorları – Əməkdar incəsənət xadimi Fəttah Xalıqzadənin və sənətşünaslıq üzrə fəlsəfə doktoru Leyla Quliyevanın, eləcə də AMK-nın Humanitar fənlər kafedrasının müdiri filologiya üzrə elmlər namizədi Firudin Qurbansoyun professor Akif Quliyevin elmi və pedaqoji fəaliyyəti ilə bağlı məruzələri dinlənilib.

Bədii hissədə Q.Qarayevin "Don Kixot" simfonik qravürlərindən "Aldonsa", "Səyahət", S.Fərəcovun "Cıdır düzündə bayram" (ifa: Mətanət Azmanlı - piano), Xalq artisti Zabit Nəbizadənin ifasında "Mahur – Hindi Dəraməd" təsnifi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Mübariz Əliyevin ifasında (saz) "Yanıq Kərəmi", "Ovşarı" aşıq havaları, AMK-nın tələbəsi Elcan Hüseynovun (qarmon) ifasında "Şəlalə" ("Bayatı-Qacar" dəramədi kimi), "Mərcanı" ("Şikəsteyi-fars" rəngi kimi), "İnnabı" ("Mən aşiq gözlərinə" təsnifi kimi) rəqsləri səslənib. "Əhli-Beyt" qrupunun videoformatda çıxışı da dinləyicilərə təqdim olunub.

Sonda professor Akif Quliyev bütün iştirakçılara öz təşəkkürünü bildirib.

# Dövlət Kamera Orkestrinin növbəti konserti

Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri oktyabrın 2-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsində növbəti konsert proqramı ilə çıxış edib.



Bədii rəhbər və baş dirijor Xalq artisti Fəxrəddin Kərimovun idarə etdiyi konsertin solisti Ümüd Musayev (faqot) olub.

Proqramda G.Rossini – 3 saylı "Sonata a Quattro" C dur (Bakıda ilk ifa), V.A.Motsart – faqot və orkestr üçün konsert B dur (K.191), B.Britten – prelüd və fuqa (op.29, Bakıda ilk ifa) və F.Əmirov – "Nizami" simfoniyası səslənib.

№75 (2140)
9 oktyabr 2024
www.medeniyyet.az

# Göyün yeddinci qatından üzü xatirələrə...

## Altmış dəqiqə havada, bir neçə saat yerdə illəri bir-birinə qatan təəssürat




Uşaq vaxtı ağlım kəsməyə başlayanda, daha doğrusu, yeniyetməlik çağlarımda tez-tez gələcək barədə düşünərdim. Məsələn, 1980-ci ildə (on yaşım vardı) düşünürdüm, görəsən, 20, 30, 40 il sonra dünya necə olacaq, mən harada olacağam, ətrafımdakı insanlar (ailə, qohum-qonşu, dost-yoldaşlar) harada, necə olacaqlar?

Ağıla (xəyala) cürbəcür fikirlər, gələcəyin "mənzərələri" gəlirdi. Bakıya gəlib ali təhsil alacağıma əmin idim, ondan sonrası ilə bağlı qəti fikrim hələ yox idi: gah Bakıda "qalırdım", gah da rayona-kəndə "qayıdırdım". Amma Bakıda yaşayıb-işləməyə başlasam da, tez-tez rayona "gələcəkdim". Özü də yalnız qatarla. Avtobusla uzaq yola çıxmağa heç həvəsim olmayıb (elə idi də yoxdur).

Rayonumuzdan hər gün üç sərnişin qatarı keçirdi: Bakıdan Qafana, Naxçıvana və oradan da İrəvana gedən qatarlar. Xüsusilə iki marşrut qrafik baxımından daha əlverişli idi: axşam qatara minirdin (ya Bakıda, ya rayonda), səhər mənzilbaşına çatırdın. Komfortu olmasa da, yatıb yuxunu alırdın, gün itkisi də olmurdu.

Beləcə, indi uzaq olan o keçmişdə hər dəfə gələcək barədə düşünəndə təkərlərinin ahəngdar tıqqıltısı ilə qulağa "sığal çəkən" qatarla fikir məni illər sonraya aparır, sonra da geri qaytarırdı. Arzular illərə qanad oldu, Bakıda tələbəlik dövrü başlandı, amma ildə heç olmayanda iki-üç dəfə rayona gedib-gəlmək vardı. 1993-cü ilin avqustun ortalarında yenə qatarla rayona getmişdim. Axırıncı dəfə...

Bir də nə vaxt bu yolu gedə biləcəkdik? Bu sual illərlə cavabını gözlədi. Arzu qanadlarında on yaşımda "yola çıxdığım" vaxtdan 20 il, 30 il, 40 il keçdi...

Ta 2020-ci ilin 27 sentyabrınadək. Sinəsini Vətəninə sipər edən igidlər o yolları açdılar...

Artıq dörd ildir Azərbaycanda bütün yollar Qarabağa aparır. 4 oktyabrda isə bu yolların bir konkret ünvanı vardı: Cəbrayıl.

27 il tar-mar edilən, yandırılıb-dağıdılan torpaqda külündən doğulub dirçəlməyə başlayan Cəbrayıl yeni yaşını, işğaldan qurtuluşunun 4 ilini qeyd edirdi.

Etiraf edim ki, nə o uzaq 80-ci ildə, nə də sonrakı illərdə ən futuristik xəyalda belə ağlıma gəlməzdi ki, günün birində Bakıdan doğma rayonumuza təyyarə ilə gedəcəyəm. Amma, necə deyərlər, ağıla gəlməyən başa gəlir. Və nə yaxşı ki gəlir. Təkcə ona görə yox ki, axırıncı dəfə 31 il əvvəl qatarla qət etdiyim dəmir yolu hələ bərpa olunur, istismar üçün hazır deyil. Həm də ona görə ki, indiki sürət çağında (yolda itirilən) hər saatın dəyəri var. Bir də ki, bu qədər möhtəşəm bir infrastrukturla yenidən qurulan yurd yerlərinə niyə "bir göz qırpımında", uçaraq da getməyək.

***

Yoldaşlardan birinin yarızarafatla dediyi kimi, hələlik Cəbrayıla birbaşa uçuş olmadığı üçün Bakı-Füzuli reysi ilə gedirik.

Pilot elan edir ki, uçuş zamanı 35 dəqiqədir. Beləliklə, qalxış və eniş dəqiqələrini hesaba almasaq, otuz dəqiqə havada özüm-özümlə qalmışam və bu fikirləri də, əslində, göyün yeddinci qatında beynimdəki "yaddaş dəftəri"nə qeyd edirəm. Birmənalı izah və təsvir edə bilməyəcəyim hisslər burulğanında ötənlərin xatirəsi, ömrün arxada qalan illəri bir-birinə qarışır. Üstəlik, bu günün mənim üçün əlamətdar olan daha bir tərəfi var...

2020-ci ilin 4 oktyabr axşamı Prezident, Ali Baş Komandan İlham Əliyev teleekran qarşısına diqqət kəsilmiş Azərbaycan xalqına Vətən müharibəsinin ilk böyük müjdəsini çatdıranda keçirdiyim hissləri xatırlayıram.

"Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir! Bu gün cəbrayıllılar, əlbəttə ki, sevinc içindədirlər, necə ki, bütün Azərbaycan xalqı. Bu, sevinc göz yaşlarıdır... Bu gün Azərbaycan xalqı sevinc içindədir... Biz bu günlər xalqımızın və dövlətimizin yeni tarixini yazırıq" – bu sözləri deyəndə Ali Baş Komandan da sevinc qarışıq qəhər içində idi, Zəfər soraqlı ilk müraciətində səsindəki həyəcan duyulurdu. O axşam sevinc göz yaşına qərq olanlardan mənim üçün ömrün yeni bir səhifəsi də başladı. 50 yaş üçün dövlətimizin başçısının bu qalibiyyət müjdəsindən böyük hədiyyə ola bilməzdi!

Uzaq tələbəlik dövründə bir dəfə (18 yaşımda) 4 oktyabrı xüsusi olaraq qeyd etdiyimi hesaba almasaq, bu tarixin mənim üçün ömrün daha bir ilinin arxada qaldığını xatırlatmaqdan savayı, əslində, elə bir məna yükü olmayıb. Belə də davam edəcəkdi, əgər 2020-ci ilin 4 oktyabrı olmasaydı. 50 ildən sonrakı illəri artıq yeni bir anlamda – Vətənin ağuşuna qayıtmış doğma yurdun xilas günü, şan-şərəf təqvimimizə yazılan Cəbrayıl Şəhəri Günü kimi qeyd etmək var. Dünyaya gəldiyin gün bütöv elin bayramına təsadüf edirsə, bundan xoş nə ola bilər...

Bu düşüncə içində göyün yeddinci qatından aşağı enirəm. Bakıdan böyük bir heyəti gətirən təyyarə ehmalca enişdən sonra Füzuli hava limanının gözəlliyi gözümüzü oxşayan binası önündə dayanır. Qarabağ torpağına xoş gəldik deyib avtobuslarla mənzil başına yola düşürük. Füzulidən Cəbrayıla yeni çəkilmiş, əvvəlkindən daha qısa və rahatlığına söz olmayacaq yolla – dörd il əvvəl bu günlər igid oğulların qanı-canı ilə azad etdikləri təpələrin arasından keçərək gedirik. Yarım saat çəkmir – budur, Cəbrayıl şəhərindəyik...

***



Cəbrayılın əsas meydanı. Şəhərin mərkəzi küçəsi də buradan keçirdi. Bir vaxtlar zəhmətkeşlərin bayramı 1 mayda, Oktyabr inqilabı günündə (7 noyabr) təntənəli nümayiş-keçidlər, digər əlamətdar tədbirlər burada olardı. Kənd uşaqları olan bizlər də rayon mərkəzinə gələndə gəzintiyə burdan başlayardıq.



Meydanın yuxarı başında Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədovun büstü qoyulmuşdu. Geniş küçənin o üzündə kitab mağazası vardı, şəhərə (o vaxtlar hələ qəsəbə idi) ilk baş çəkdiyim yer ora olardı. Onun yaxınlığında çayxana-yeməkxana, bir az aralıda təsərrüfat malları mağazası. Küçənin bu tayında univermaq, "Davudun dükanı" kimi tanıdığımız ərzaq mağazası (taxta çəlləklərdəki pendirin xüsusilə çox alıcısı olardı), üzüaşağı gedəndə sağda ikimərtəbəli mehmanxana, solda rayon İcraiyyə Komitəsinin üçmərtəbəli binası. Onu keçəndən sonra əzəmətli çinarın yanında dayanardıq. Yeddi əsr yaşı olan nəhəng gövdəli ağac SSRİ-nin "Qırmızı kitabı"na salınmışdı. Dibindən kəhriz ("Lenin kəhrizi" – küçənin adı ilə) suyu axırdı. Küçəboyu irəlidə ikimərtəbəli "Uşaq aləmi" mağazası, məişət evi (fotostudiya, dərzi və s.), sonra böyük bazar, ondan sağa dönəndə universam vardı...

İndi onların heç biri yoxdur. Otuz ilə yaxın misilsiz bir barbarlıq – erməni vandalizmi ilə üz-üzə qalmış digər yurd yerlərimiz kimi, Cəbrayıl da yerlə yeksan edilib, daşı daş üstə qalmayıb. Yolboyu diqqət yetirsən, bəzi tikililərin bünövrə daşlarını görə bilərsən...



Artıq iki ildir Cəbrayıl da yenidən qurulur. Daş üstünə daş qoyulur, yeni şəhər salınır. Qoca çinar dibindən kəsilsə də, kökü qurumayıb. Çünki kökü sudadır. Kəhrizin gözü tutulsa da, suyu tükənməyib. Çinarın gənc pöhrəsi də artıq 8-10 metr hündürlüyə qalxıb...

Bir vaxtların meydan yerində böyük bir konsert səhnəsi qurulub, bir qədər aralıda tamaşa səhnəsi də var. Ətrafda çal-çağır, büsat. Peşəkar rəssam və sənətkarlar, xalçaçılarla bir arada uşaqlar da əl qabiliyyətlərini göstərirlər.

"Şəhər günü" konserti başlayıb. İfalar bir-birini əvəz edir. Müğənni Gülüstan Əliyeva mərhum sənətkar Məmmədbağır Bağırzadənin ilk dəfə canlı ifada eşitdiyim "Cəbrayıl" mahnısını oxuyur. Yurdun, bir zamanların abad şəhərinin tərənnümü... İndi nə o şəhər var, nə də onun vəsf olunan mənzərəsi. Amma yeni şəhərin ilk ünvanları gələcəyə ümid çıraqlarıdır. "Şəhər günü"nün təntənəsi bir qədər aralıdakı yeni yaşayış kompleksinədək yayılır. 4-5 mərtəbəli binalarda 700-dən çox mənzil hazırdır. 130-dan çoxuna sakinləri köçüb. Akademik Mehdi Mehdizadə adına 960 şagird yerlik orta məktəb (iki il sonra Cəbrayılın qocaman tədris ocağı kimi 150 yaşını qeyd edəcək) binası da yenidən qurulan Cəbrayıl şəhərinin ilk ünvanlarındandır...

***

Bayram büsatı davam edir. Biz isə Bakıya qayıdırıq. Yenə göyün yeddinci qatında illəri qovan xəyal-düşüncələr... Artıq keçmişi yox, gələcəyi düşünürəm. Amma, on yaşında olduğum kimi, 20, 30, 40 il sonranı deyil, daha yaxın gələcəyi. Hər halda, ömrün çoxu arxada qalıb. Arzu da gərək elə qanad açsın, ona gedib çata biləsən.

Arzum budur ki, tezliklə Bakıdan Cəbrayıla yola düşəcək qatarla 32-ci ildir doğma yurddan uzaq düşən valideynlərimi o torpağa aparmaq qismət olsun...

Bir də... bir daha bizə təqvimimizə külündən dirçəlib, yenidən qurulan şəhərlərimizin gününü yazmaq qismət olmasın...

Mən bu arzu-diləklə baş-başa ikən təyyarəmiz yerə enir. Bu dəfə 30 dəqiqə, deyəsən, daha tez keçdi... Deməli, otuz il bizdən uzaq düşən yerlərimiz bu qədər yaxında imiş...

***

Sonda... bu yazı, əslində, burada bitmir, ardı var...

Cəbrayılın bir parçası olan balaca vətənimin – Quycaq kəndinin öz sakinlərini qoynuna alacağı günün təntənə-təəssüratını da yazmaq ümidi ilə...

**Vüqar Əliyev**

# Azərbaycan uşaq mətbuatının yaradıcısı

Ötən əsrin əvvəllərində Azərbaycanda maarifçilik işi yeni inkişaf mərhələsinə qədəm qoyur. Milli ruhlu ziyalıların səyləri ilə yeni savadlı nəsillər yetişdirilməsi istiqamətində diqqətəlayiq addımlar atılır. Həmin ziyalılardan biri görkəmli ictimai və maarif xadimi, naşir, redaktor Əlisgəndər Cəfərzadə idi.

Əlisgəndər Hacıbaba oğlu Cəfərzadə 14 oktyabr 1875-ci ildə Bakı şəhərində anadan olub. İlk təhsilini 1887–1890-cı illərdə rus-müsəlman məktəbində alır. 1895–1898-ci illərdə Nəriman Nərimanovun Bakıda təşkil etdiyi ilk qiraətxanada çalışır. Müəllim işləmək məqsədilə 1897-ci ildə III Aleksandr kişi gimnaziyasına ərizə ilə müraciət edir. İmtahanları müvəffəqiyyətlə verir və Azərbaycan dili müəllimi işləmək hüququnu alır. Uzun müddət Aleksey ibtidai məktəbində çalışır. Daha sonra "Nəşri-maarif" cəmiyyətinə dəvət edilir və qurumun katibi seçilir. Cəmiyyətin açdığı ibtidai məktəblərin müəllim kadrları, dərslik və metodik vəsaitlərlə təmin olunması işinə rəhbərlik edir.

Araşdırmalardan məlumdur ki, ötən əsrin əvvəllərində Azərbaycanda intişar tapan maarifçilik işi bir sıra dövri nəşrlərin meydana gəlməsi ilə nəticələnir. Yaranmış imkan və şəraitdən yararlanmaq məqsədilə Əlisgəndər Cəfərzadə 16 aprel 1906-cı ildə işıq üzü görən "Dəbistan" dərgisinin nəşrinə müvəffəq olur. O, jurnalın nəşrinə icazə almaq üçün Bakı şəhər rəisinə müraciətində yazırdı: "Bizdə xüsusi və ümumi müsəlman məktəblərində təhsil alan uşaqlar üçün bir mətbu orqan yoxdur. Bir xalq müəllimi kimi uşaqlar üçün Azərbaycan dilində ayda bir dəfə nəşr olunacaq illüstrasiyalı "Dəbistan" adlı jurnal nəşr etdirmək istəyirik". Xatırladaq ki, "dəbistan" sözü fars dilində "ibtidai məktəb" deməkdir.

Onu da deyək ki, həmin dövrdə Ə.Cəfərzadənin nəşriyyat işi sahəsində yeterli təcrübəsi vardı. Ötən əsrin əvvəllərində məktəblərdə fars dilinin tədrisinin



düzgün təşkili məqsədilə bu dildə nəsr və poeziya nümunələrindən ibarət "Kilidi-ədəbiyyat" adlı məcmuəni, eyni zamanda 1901-ci ildə görkəmli maarifçi Rəşid bəy Əfəndiyevin "Bəsirətül-ətfal" dərsliyini redaktə edərək nəşr etdirmişdi.

"Dəbistan"ın nəşrində məqsəd uşaqları maarifləndirmək, elmin müxtəlif sahələri, o cümlədən Azərbaycan və dünya ədəbiyyatı nümunələri ilə tanış etmək idi. Dərgi təlim-tərbiyə işində ailəyə kömək məqsədilə "Valideynə məxsus vərəqə" adlı əlavə ilə nəşr olunurdu. Əlavədə uşaqların tərbiyəsi haqqında valideynlərə tövsiyələr verilir, sinifdənxaric oxu və elmi cəhətdən faydalı olan məqalələrin, hekayələrin, tapmaca və bilməcələrin oxunmasının uşaqlar üçün əhəmiyyəti vurğulanırdı.

Dövrün tanınmış yazıçı və şairləri, publisistləri Nəriman Nərimanov, Həsən bəy Zərdabi, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Abdulla Şaiq, Sultanməcid Qənizadə və başqaları dərginin fəaliyyətində böyük rol oynayırdılar. Həmin müəlliflər uşaqlar üçün yazdıqları maraqlı əsərləri jurnalda dərc etdirirdilər. Burada təhsil məsələləri ilə yanaşı, uşaqların təlim-tərbiyəsinə dair bədii əsərlər, görkəmli şəxsiyyətlər, yazıçılar haqqında, elm və texnika aləmində baş verən ən son yeniliklər, coğrafiya, fizika, heyvanat aləmi və s. haqqında yazılar dərc olunurdu. Jurnalın məktəblilər və valideynlər tərəfindən daha rahat anlaşılması üçün çap olunan əsərlərdəki əcnəbi sözlərə aid lüğət və hər nömrəyə dair mündəricat da verilirdi.

Ə.Cəfərzadə tanınmış şair və yazıçılarla sıx münasibətlər quraraq, onları uşaq mövzusunda əsərlər qələmə almağa çağırır, mövzular təklif edirdi. Naşir böyük şair M.Ə.Sabirlə görüşlərinin birində ondan "Dəbistan"a töhfə kimi məktəbə dair bir şeir yazmasını xahiş etmişdi. Sabir elə həmin günün səhəri "Məktəb şərqisi" adlı məşhur şeirini yazır və əsər jurnalın növbəti nömrəsində dərc olunur:

*...Gülşən, gülşən lətafətin var,*
*Rövşən-rövşən səadətin var,*
*Vazeh-vazeh bəyanlarında*
*Şirin, şirin hekayətin var!*

*Olsun, olsun səninlə xoşhal,*
*Yetsin, yetsin kəmalə ətfal,*
*Görsün, görsün pəsərlərində,*
*Sabir-sabir pədərlər iqbal!*

Azərbaycan yazıçı və şairlərinin əsərləri ilə yanaşı, tanınmış rus ədiblərindən İ.Krılov, A.Puşkin və L.Tolstoyun yaradıcılığından tərcümə, nağıl və hekayələrə də jurnalın səhifələrində yer ayrılır. Jurnalın daha da maraqlı olması və geniş yayılması üçün son səhifədə məktub, redaksiyaya cavab, uşaq nağılları, təmsil və tapmacalar dərc olunur. Sual və tapmacalara düzgün cavab tapan uşaqlara jurnalın çapdan çıxan yeni nömrəsi göndərilir.

Bir müddətdən sonra jurnal maliyyə çətinliyi ilə üzləşir. Bundan narahat olan görkəmli ictimai xadim, publisist Məhəmməd Əmin Rəsulzadə "İrşad" qəzetinin 7 dekabr 1906-cı il sayında məqalə ilə çıxış edir. İmkanlı şəxsləri nəşrə kömək etməyə çağırır: "Həmiyyətə gəliniz, nahaq yerə xərclədiyiniz pulların bir cüzisindən cüzisi də öz övladınızın tərbiyəsində məsrəf edib bu jurnalı bağlanmağa qoymayınız! Kömək ediniz, 3-4 manata qızırqanıb daldasında yatmayınız?".

Lakin bu müraciətlər bir nəticə vermir. 1908-ci il martın 10-da "Dəbistan" jurnalı bağlanır. Ə.Cəfərzadə jurnalın son sayında yazır: "Oxucular, bəllidir ki, jurnalın axırıncı nömrəsi artıq gecikir. Mən işimi lazımi səviyyədə aparıram, bütün müsəlman əhalisi mənim işimə deyil, "Dəbistan"ın artıq qaçılmaz olan ölümünə, vəfatına acıyır. Bütün müsəlman cəmiyyəti dərin yuxudadır, hərəkətsizdir və çox baha da olmayan qəzeti almağa qadir deyildi. Və mən məcburiyyət qarşısındayam ki, öz həmvətənlərimin yuxudan oyanmasını gözləyim. Mən dərin təəssüflə öz istəkli balamın – "Dəbistan"ın həyatını bağlayıram. Tərəqqiyə gedən yolu dəstəkləmək asandır, ancaq onu yenidən bərqərar etmək çətindir".

M.Ə.Sabir "Dəbistan"ın fəaliyyətini dayandırması ilə bağlı acı təəssüfünü belə ifadə edirdi:

*Əlminnətü-lillah ki,*
*"Dəbistan"da qapandı!*
*Bir badi-xəzan əsdi,*
*gülüstan da qapandı!*

Cəmi iki il nəşr olunmasına baxmayaraq, maarifçi-demokratik səciyyəli "Dəbistan" jurnalı XX əsrin əvvəllərində genişlənməkdə olan maarifçilik hərəkatına mühüm töhfələr verib.

Ə.Cəfərzadə daha sonra bədii və elmi yaradıcılıqla da məşğul olur. Dövri mətbuat səhifələrində Əlişir Nəvai, Seyid Əzim Şirvani, Əli bəy Hüseynzadə, Həsən bəy Zərdabi haqqında məqalələri işıq üzü görür. O, eyni zamanda uşaqlar üçün "Balaca Firidun", "Ata və oğul", "Mərhəmətli Fatma", "Cəmilənin sərgüzəşti" adlı hekayələr və "Kilidi-ədəbiyyat" dərsliyini yazır.

Görkəmli maarif xadimi, yazıçı, naşir Əlisgəndər Cəfərzadə 28 yanvar 1941-ci ildə vəfat edib.

**Savalan Fərəcov**

## Görkəmli maarifçi-pedaqoqa haqqında monoqrafiya çap olunub

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri professor Asif Rüstəmlinin "Cəmo bəy Cəbrayılbəyli: həyatı və bədii yaradıcılığı" kitabı nəşr olunub.

Dörd fəsildən ibarət monoqrafiya bu mövzuya həsr edilmiş ilk elmi-tədqiqat işidir. Ədibin şeirləri, dram əsərləri və nəsri öz dövrünün ilk mənbələri əsasında tədqiq edilib. Monoqrafiyada Azərbaycan ictimai xadimi, maarifçi, pedaqoq, metodist, publisist və yazıçı Cəmo bəy Cəbrayılbəyliyə (1887-1965) məxsus "Vətən marşı"nın nəşr tarixi və "Azərbaycan marşı"na çevrilmə səbəbləri, bu şeirin yanlış olaraq istiqlal şairimiz Əhməd Cavada aid edilməsi incələnərək faktlar əsasında obyektiv dəyərləndirilib.

Ədəbiyyat İnstitutunun "Sənətkarın elmi pasportu" seriyasının 52-ci nəşri olan kitabın elmi redaktoru filologiya elmləri doktoru, professor Bədirxan Əhmədli, rəyçisi filologiya üzrə fəlsəfə doktoru, dosent Elmira Qasımlıdır.

# Redaksiyaya məktub

## Aşıq Ələsgərin abidəsinin "tənqidçi"lərinə bir neçə mesaj...



Çağdaş heykəltaraşlığımızın görkəmli nümayəndəsi, Xalq rəssamı, professor Natiq Əliyevin müəllifi olduğu Aşıq Ələsgərin abidəsi haqqında əlinə bir dəfə də tişə almayan "bilən-dər"lərin "tənqid" və "irad"larına bir neçə mesaj:

– Nəyinsə haqqında müsbət və ya mənfi fikir bildirərkən onun mütəxəssisi olmaq ən başlıca şərtlərdəndir. Çünki bir şey haqqında ən düzgün dəyəri yalnız onun mütəxəssisi verə bilər.

– Yaradılan heykəlin bədii həlli ənənəvi şəkildə, yəni görkəmli aşıq adəti üzrə sazı sinəsinə basılı halda ifadə edilsəydi, onun olduqca sadə – primitiv baxılması danılmaz olacaqdı. Ancaq əminəm ki, yenə də bizim "dilavər"lər "Bu nə heykəldir?" deyə gündəm eşqiylə statuslar paylaşacaqdı.

– Heykəldə aşığın sazı başının üzərinə qaldırıb ifa etməsinin əks olunması onun statik deyil, daha dinamik, daha ekspressiv – obrazlı baxılmasını şərtləndirib ki, bu da müəllif tərəfindən yüksək ustalıqla icra olunub.

– Abidənin müəllifi ixtisası üzrə mütəxəssis və mütaliəni sevən biridir. Bu isə yaradılan obrazın bədii və texnoloji həllinin daha kamil olmasını səciyyələndirən amillərdəndir. Odur ki, Xalq rəssamı Natiq Əliyev Azərbaycan aşıq sənətinin böyük sənətkarı haqqında dərin araşdırma aparıb, Aşıq Ələsgərin obrazının ikonoqrafik xüsusiyyətlərini daha dəqiq ifadə etməyə nail olub.

Sonda müdriklərdən birinin fikrini xatırlatmaq istərdim: kimsə nəyisə dərk etməkdə aciz qalarsa, ondan irad tutar.

**Aslan Xəlilov**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru,**
**ADMİU-nun dosenti**

# "Elə bilirəm ki, öz evimdəyəm"

2-8 oktyabr tarixlərində keçirilən X Bakı Beynəlxalq Kitab Sərgisinin gözlənilən qonaqlarından biri də Azərbaycan əsilli İran yazıçısı Fəribə Vəfidir, desək, yanılmarıq.

Azərbaycan oxucusunun 2018-ci ildə "Zirzəmi quşu" romanı ilə tanıdığı Fəribə Vəfi Təbrizdə dünyaya gəlib. Ona dünya şöhrəti gətirən "Zirzəmi quşu" romanınadək onlarla hekayəsi dərc olunub. Qadın qəlbinin sirlərini böyük cəsarətlə qələmə alan Fəribə xanım "Ədəbiyyatda qadın səsi" mühazirəsi ilə onun yaradıcılığını sevən soydaşları ilə görüşdü.

Fəribə Vəfi sözünə belə başladı: "Mən çox sərgilərdə, oxucularla görüşlərdə olmuşam, amma həmişə farsca, almanca, ya da ingiliscə danışmışam. Bu günsə ilk dəfədir ki, auditoriya qarşısında Azərbaycan dilində danışıram deyə, elə bilirəm ki, öz evimdəyəm".

Fəribə xanım əsərlərinin əsas qəhrəmanının niyə məhz qadın olduğunu, bu seçimi bilərəkdən etdiyini də açıqladı: "Dünya ədəbiyyatında qadın yazarlar çox azdır, kişilər isə qadın qəlbini nə qədər yaxşı duysalar da, tam hiss edib anlaya bilmirlər. İran ədəbiyyatında isə mənə qədər qadın obrazları ya şeytan xislətli, ya da sadəlövh mələk kimi təsvir edilirdilər. Amma gerçək qadın obrazı yox idi...".

Fəribə Vəfi "Ədəbiyyatda qadın səsi" mühazirəsindən sonra oxucuların suallarına cavab verdi, onun yaradıcılığı ilə maraqlananlara bildirdi ki, hazırda bir mühacir qadının həyatından bəhs edən roman üzərində işləyir.



Mədəniyyət Nazirliyi və "Parlaq imzalar" nəşriyyatının təşkil etdiyi mühazirə oxucular üçün kitab imzalama mərasimi ilə bitdi.

**Gülcahan**

# "Zəfər zəngüləsi" kitabının təqdimatı

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon MKS-nin M.Ş.Vazeh adına Mərkəzi Kitabxanası oktyabrın 5-də X Bakı Beynəlxalq Kitab Sərgisində tanınmış yazıçı-publisist, kitabxananın fəxri oxucusu Nüşabə Məmmədlinin "Zəfər zəngüləsi" kitabının təqdimatını keçirib.

Kitabın redaktoru, tarix üzrə fəlsəfə doktoru, Yasamal rayon MKS-nin direktoru Lətifə Məmmədova tədbiri açaraq, yazıçının Qarabağ müharibəsi haqqında yazdığı əsərlər haqqında qısa məlumat verib. Bildirib ki, "Zəfər zəngüləsi" kitabı 2020-ci ilin 44 günlük Vətən müharibəsinə, 2023-cü ilin 20 sentyabrında Azərbaycanın Qarabağda suverenliyinin tam bərpası ilə nəticələnən antiteror əməliyyatının ildönümünə və Dövlət Suverenliyi Gününə həsr olunub. Əsərdə Vətən müharibəsi və antiterror əməliyyatının qəhrəmanları haqqında maraqlı məlumatlar, döyüş səhnələri, əsgər və zabitlərimizin igidliyi təsvir olunur: "Əsər bir nəfəsə oxunur. Bu kitab həm də kitabxanamızın keçirdiyi "Şəhidlər unudulmur", "Şəhidlər ölməz, Vətən bölünməz" layihələrinə yazıçının töhfəsidir. Şəhidlərimiz haqqında çox yazılmalıdır. Onlara həsr olunmuş teatr tamaşaları qoyulmalı, filmlər çəkilməli, irihəcmli musiqi əsərləri yazılmalı, təsviri sənət əsərləri ərsəyə gətirilməlidir".



Yazıçı Nüşabə Məmmədli təqdimata toplaşanlara təşəkkürünü bildirərək, kitabın ərsəyə gəlməsindən danışıb. Müəllif kitabın yazılmasında, o cümlədən sənədli materialların əldə edilməsində zəhməti keçən hər kəsə, xüsusilə şəhid ailələrinə minnətdarlığını ifadə edib.

Kitabın naşiri Akif Dənzizadə, Qarabağ müharibəsi qazisi Ramin Şirinov, tədbirin aparıcısı Əməkdar artist Elşən Cəbrayılov əsər haqqında fikirlərini bölüşüb, müəllifə yeni yaradıcılıq uğurları arzulayıblar.

Sonda yazıçı Nüşabə Məmmədli kitabı imzalayaraq oxuculara təqdim edib.

# Bakı Beynəlxalq Kitab Sərgisinin çinli qonaqları ilə görüş

X Bakı Beynəlxalq Kitab Sərgisində iştirak edən Çin nümayəndə heyəti Azərbaycan Dillər Universitetinin (ADU) qonağı olub.



Rektor Kamal Abdulla qonaqlarla görüşdə ADU-nun dünyanın bir sıra universitetləri ilə əlaqələrinin uğurla inkişaf etdiyini vurğulayıb.

Bildirilib ki, ADU-nun nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutu Azərbaycan ilə Çin arasında təhsil sahəsində əməkdaşlığı gücləndirir, Çin dilinin tədrisinə və mədəniyyətinə marağı stimullaşdırır. Konfutsi İnstitutu Çin dilinin tədrisinin inkişafı üçün iki xalq arasında münasibətlərin artırılmasına xidmət edir. Çinin Xudzou Dövlət Universitetində Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin fəaliyyəti bu münasibətlərə töhfədir. Azərbaycan dili, mədəniyyəti və tarixini Çində təbliğ edən bu mərkəzlə ADU-nun sıx əlaqələri mövcuddur. Yaxın vaxtlarda Çinə ezam ediləcək ADU-nun nümayəndə heyəti Xudzou Dövlət Universitetində olacaq.

"Phonix" Nəşriyyat və Media Qrupunun baş direktor müavini Zhou Jianjun Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində Çin nəşriyyatlarının iştirakının təşkilində göstərilən dəstəyə və Çin mədəni irsinə olan diqqətə görə təşəkkür edib. Qonaq bildirib ki, bu sərgi ünsiyyət qurmaq, kitab biznesinin inkişaf etdirilməsi üzrə təcrübələri bölüşmək üçün ideal platformadır, eyni zamanda hər iki xalqın mədəni irsinin öyrənilməsi və təbliğinə töhfə verəcək.

Şərqi Çin Pedaqoji Universiteti nəşriyyatının rəhbəri Vang Yan iki ölkə arasında mədəni, elmi əməkdaşlığın genişləndirilməsi imkanlarından bəhs edib, Çin-Azərbaycan mədəni əməkdaşlığının davamı olaraq tərcümə layihələrinin önəmini vurğulayıb.




Qonaqlar ADU-nun nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutu ilə tanış olublar.

***

ADU-nun Konfutsi İnstitutu X Bakı Beynəlxalq Kitab Sərgisində aparıcı Çin nəşriyyatları ilə birgə "Bakı – kitablar dünyası" adlı tədbir təşkil edib.

Tədbirdə Çinin ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Dinq Tao iki ölkənin klassik bədii ədəbiyyatının tərcüməsi və nəşri üzrə layihələrinin mədəni mübadilənin dərinləşdirilməsinə töhfə olduğunu deyib.

"Phoenix" Nəşriyyat və Media Qrupunun baş direktorunun müavini Zhou Jiangjun və Şərqi Çin Universiteti Nəşriyyat Evinin prezidenti Vanq Yanq, ADU-nun Konfutsi İnstitutunun direktorları Rafiq Abbasov və Li Cihua çıxış ediblər.

Bədii hissədə Konfutsi İnstitutunun müəllim və tələbələri Çin çayı mərasimi keçirib, xəttatlıq sənətini nümayiş etdiriblər. Çin fleyta və arfa alətlərində musiqi əsərləri ifa olunub.

## Xatirə təqvimi 9 – 11 oktyabr

### Azərbaycan

**9 oktyabr 1980** – Fəlsəfə elmləri doktoru, professor Şükufə Şamil qızı Mirzəyeva (20.12.1925 –1980) vəfat edib. Estetika tarixi və nəzəriyyəsinə dair tədqiqatların müəllifidir.

**9 oktyabr 1989** – Tanınmış yazıçı, şair İsmayıl Abuzər oğlu Qarayev (5.12.1927 – 1989) vəfat edib.

**9 oktyabr 2022** – Əməkdar incəsənət xadimi, bəstəkar Ruhəngiz Nağı qızı Qasımova (12.7.1940 – 2022) vəfat edib.

**10 oktyabr 1907** – Şair, ədəbiyyatşünas Hümmət Əli oğlu Əlizadə (1907–1941) anadan olub.

**10 oktyabr 1911** – Tanınmış ədəbiyyatşünas alim, tərcüməçi, mətnşünas, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Abbas Fəttah oğlu Zamanov (1911 – 1.4.1993) Naxçıvanın Şərur rayonunda anadan olub.

**10 oktyabr 1912** – Əməkdar artist Rza Abbas oğlu Nadirov (1912–1995) Bakıda doğulub. Gəncə Dövlət Dram Teatrının aktyoru olub.

**10 oktyabr 1935** – Əməkdar incəsənət xadimi, şair Həmid Abbas (Həmid Məmmədəli oğlu Abbasov; 1935 – 19.11.1999) anadan olub. Bir çox şeirlərinə mahnılar bəstələnib.

**10 oktyabr 1935** – Şair, dramaturq Şəkər Aslan (Şəkər Mirzə oğlu Aslanov; 1935 – 13.7.1995) Lənkəran rayonunda anadan olub.

**10 oktyabr 1939** – Görkəmli şərqşünas alim, filologiya elmləri doktoru elmi dərəcəsi almış ilk azərbaycanlı qadın-ərəbşünas, professor Aida Nəsir qızı İmanquliyeva (1939 – 19.9.1992) Bakıda doğulub. Yeni dövr ərəb ədəbiyyatına dair tədqiqatların müəllifidir. Azərbaycan EA Şərqşünaslıq İnstitutunun direktoru (1991-1992) olub.

**10 oktyabr 1976** – Ustad xanəndə, Qarabağ muğam ifaçılığı ənənələrinin davamçısı Ağabala Məmmədbağır oğlu Abdullayev (1910–1976) vəfat edib. Füzuli rayonunda yaşayıb, bir çox xanəndələrin müəllimi olub.

**10 oktyabr 2015** – Xalq artisti Nuriyyə Əliağa qızı Əhmədova (26.12.1950 – 2015) vəfat edib. Musiqili Komediya Teatrında çalışıb, filmlərdə çəkilib.

**11 oktyabr 1919** – Əməkdar artist Əyyub Cəfər oğlu Məmmədov (1919–1978) Naxçıvanda doğulub. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olub.

**11 oktyabr 1938** – Yazıçı-jurnalist, tərcüməçi Emil Güləli oğlu Ağayev (1938–2016) Qazaxıstanın Çimkənd şəhərində doğulub. "Qara gölün cəngavərləri" bədii filminin, sənədli filmlərin ssenari müəllifidir.

**11 oktyabr 1983** – Xalq yazıçısı, Sosialist Əməyi Qəhrəmanı Süleyman Hüseyn oğlu Rəhimov (22.3.1900 – 1983) vəfat edib. Əsərləri: "Şamo", "Ağbulaq dağlarında", "Mehman", "Qafqaz qartalı" və s. Azərbaycan Yazıçılar Birliyinin sədri olub.

### Dünya

**9 oktyabr 1862** – Türkiyə yazıçısı Fatma Aliyə Topuz (1862–1936) İstanbulda doğulub. Türk ədəbiyyatının ilk qadın romançısı kimi tanınıb. Əsərləri: "Refet", "Cövdət paşa və zamanı" və s.

**9 oktyabr 1926** – Rus aktyoru, SSRİ Xalq artisti Yevgeni Evstiqneyev (1926–1992) anadan olub. Filmləri: "Avtomobildən qorun", "Baharın on yeddi anı", "İtalyanların Rusiyada ağlasığmaz macəraları".

**9 oktyabr 1940** – İngilis musiqiçisi, "The Beatles" qrupunun yaradıcılarından biri Con Lennon (John Lennon; 1940 – 8.12.1980) anadan olub.

**10 oktyabr 1813** – İtalyan bəstəkarı Cüzeppe Verdi (Giuseppe Fortunino Francesco Verdi; 1813 – 27.01.1901) anadan olub. "Riqoletto", "Traviata", "Aida" operaları dünya musiqi xəzinəsinə daxildir.

**10 oktyabr 1892** – Serb-xorvat yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1961) laureatı İvo Andriç (1892–1975) anadan olub. Romanları: "Drin üzərində körpü", "Travnik xronikası" və s.

**10 oktyabr 1913** – Fransız yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1985) laureatı Klod Simon (Claude Simon; 1913–2005) anadan olub. Əsərləri: "Farsal döyüşü", "Flandriya yolları", "Qadınlar".

**10 oktyabr 1930** – İngilis dramaturqu, ssenarist, şair, ədəbiyyat üzrə Nobel mükafatı (2005) laureatı Harold Pinter (1930–2008) anadan olub. Pyesləri: "Məşuq", "Evə qayıdış", "İtirilmiş zamanın axtarışında".

**11 oktyabr 1885** – Fransız yazıçısı, şair və dramaturq, ədəbiyyat üzrə Nobel mükafatı (1952) laureatı Fransua Moriak (François Mauriac; 1885-1970) anadan olub. "Məhəbbət səhrası", "İlan yığnağı", "İsanın həyatı", "Quzu" romanları, "Asmodey" pyesi və s. əsərlərin müəllifidir.

**11 oktyabr 1894** – Alman əsilli rus yazıçısı Boris Pilnyak (Boray; 1894–1938) anadan olub. Əsərləri: "Ac il", "Duz anbarı", "Volqa Xəzər dənizinə tökülür", "Sönməmiş ayın povesti" və s. Repressiya qurbanıdır.

**Hazırladı: V.Orxan**

# "Daşa yazılan tarix" – sərgidə daha bir təqdimat

Oktyabrın 7-də X Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində Türk Mədəniyyəti və İrsi Fondunun təşkilatçılığı ilə görkəmli qazax alimi, akademik Darxan Kıdıralinin "Daşa yazılan tarix" kitabının təqdimatı olub.

Tədbirin aparıcısı şair Fərid Hüseyn kitab haqqında məlumat verib. Bildirib ki, "Daşa yazılan tarix" yalnız elmi əsər deyil, həm də Türk dünyasının ortaq yaddaşını, irsini və mədəniyyətini bir araya gətirən elmi tədqiqatdır.




Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova çıxışında diqqətə çatdırıb ki, ümumtürk tarixi və mədəni irsinin izlərinin əks olunduğu kitab təkcə alimlər üçün deyil, geniş oxucu kütləsi üçün də maraqlı olacaq.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid əsərin türk xalqlarının tarixinin gələcək nəsillərə ötürülməsində və qorunmasında önəmli vasitə olacağını qeyd edib.

Çıxışlarda bildirilib ki, bu cür əsərlər qardaş xalqlarımızın ortaq köklərini, mədəni irsini də daha dərindən öyrənmək və tanıtmaq üçün mühüm rol oynayır.

# Qobustan qoruğunun Qazaxıstanın muzey-qoruğu ilə birgə seminarı

Qobustan Milli Tarix-Bədii Qoruğu və Qazaxıstan Respublikasının Tanbalı Dövlət Tarix-Mədəniyyət və Təbiət Muzey-Qoruğu arasında imzalanmış əməkdaşlıq memorandumuna əsasən elmi seminar keçirilib.

Qobustan qoruğunda təşkil olunan "Qayaüstü təsvirlər – bəşəriyyətin ortaq irs abidələri kimi" mövzusunda seminarda hər iki qoruq ərazisində yerləşən abidələrin vəziyyəti, qorunması, bərpası və konservasiyası ilə bağlı görülən işlər barədə mühazirələr dinlənilib, elmi tədqiqatların nəticələri, mədəni irs nümunələrinin qorunması strategiyaları və gələcək əməkdaşlıq imkanları müzakirə edilib. Daşınmaz tarix və mədəniyyət abidələrinin mühafizəsi, konservasiyası və bərpası mövzusunda birgə konfransların, seminarların, treninqlərin keçirilməsi yönündə məsləhətləşmələr aparılıb.

Tədbirdə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin nümayəndələri, AMEA-nın mütəxəssisləri, digər qoruq və muzeylərin əməkdaşları iştirak ediblər.

Qobustan Milli Tarix-Bədii Qoruğunun direktoru Vüqar İsayev iki ölkə arasındakı mədəni əlaqələrdən söz açaraq, belə tədbirlərin əhəmiyyətini vurğulayıb.

Tanbalı Dövlət Tarix-Mədəniyyət və Təbiət Muzey-Qoruğunun direktoru Bibigül Dandıqaraeva Tanbalı abidələri, qoruq-muzeyin fəaliyyəti barədə məlumat verib, birgə fəaliyyət, o cümlədən mədəni-maarifləndirici layihələrin həyata keçirilməsini nəzərdə tutan əməkdaşlıq memorandumunun əhəmiyyətindən danışıb.





Qobustan abidələrinin tədqiqatçısı tarix üzrə fəlsəfə doktoru, arxeoloq İdris Əliyev dövrü olaraq burada aparılan qazıntılar və əldə olunmuş maddi mədəniyyət nümunələri haqqında məlumat verib.

Seminar çərçivəsində Tanbalı abidələrini əks etdirən fotosərgiyə baxış keçirilib.

Sonda iştirakçılar üçün Qobustan qoruğuna ekskursiya təşkil olunub.

# Rus Dram Teatrı “Kapitan qızı”nı Həştərxana aparıb

Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı 30 sentyabr – 10 oktyabr tarixlərində Rusiyanın Həştərxan şəhərində keçirilən “Teatralnaya delta” III Beynəlxalq Festival-Forumunda iştirak edib.





Yaradıcı heyət Həştərxan Dram Teatrının səhnəsində A.S.Puşkinin əsəri əsasında hazırlanan “Kapitan qızı” tamaşasını təqdim edib. Tamaşaya rusiyalı rejissor İqor Konyayev quruluş verib.

Səhnə əsəri ötən il “Sankt-Peterburq teatr emalatxanaları” beynəlxalq layihəsi çərçivəsində təqdim olunub. Bakıda premyerası 2023-cü ilin iyununda olub. Bu ilin aprelində “Kapitan qızı” Sankt-Peterburqda keçirilən “Rusiyada görüşlər” XXVI Beynəlxalq Rus Teatrları Festivalında, may ayında isə A.P.Çexovun Ədəbi-Memorial Malikanə-Muzeyində (Moskva vilayətinin Çexov rayonu) “Melixovskaya vesna” teatr festivalında nümayiş olunub.

Azərbaycan aktyorlarının təqdimatında Puşkinin yaradıcılığına olan böyük marağı Həştərxan Dram Teatrının tamaşa zalındakı anşlaq və sonda tamaşaçıların sürəkli alqışları təsdiq edirdi.

Rus Dram Teatrının yaradıcı heyəti mədəniyyətlərarası dialoqu təşviq edən festival-forumun iştirakçısı kimi diploma layiq görülüb.

Təqdimat mərasimində teatrın direktoru Əməkdar mədəniyyət işçisi Ədalət Hacıyev və Həştərxandakı azərbaycanlı diasporunun sədri Vahid Rəhimov da iştirak ediblər.

Teatrın kollektivinin üzvləri Həştərxanda Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin abidəsini də ziyarət ediblər.

“Teatralnaya delta” festivalının adı Volqa çayının qollara və ayrı-ayrı axarlara ayrılaraq nəticədə hamısının dənizə töküldüyü Həştərxan deltası kimi – müxtəlif teatr formaları və janrlarının təcəssümünü əks etdirir. Teatr bir sənət növü kimi dəniz mənasında göstərilir. Festival Həştərxan Vilayəti Hökumətinin və Mədəniyyət Nazirliyinin dəstəyi ilə təşkil olunur.

# Azərbaycan Şimali Kiprdə keçirilən festivalda təmsil olunub





Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) İskele Bələdiyyəsinin təşkilatçılığı ilə ”Bizim sevgimiz – sizin sevginizdir” adlı mədəniyyət festivalı keçirilib. Festivalda ölkəmizi Azərbaycan-ŞKTC Dostluq Cəmiyyəti təmsil edib.

Cəmiyyətin rəhbəri Orxan Həsənoğlu bildirib ki, tədbir çərçivəsində ümumilikdə 21 ölkənin mədəniyyətinə və adət-ənənələrinə həsr olunmuş stendlər təşkil olunub.

ŞKTC Prezidenti Ersin Tatar və turizm naziri Fikri Ataoğlu festival iştirakçılarına müraciət ediblər.

Ersin Tatar çıxışında Kipr türklərinin zəngin tarixinə diqqət çəkib, mədəniyyətlərarası əlaqələrin dərinləşdirilməsinin vacibliyini qeyd edib. “ŞKTC Şərqi Aralıq dənizində mədəniyyət və insan hüquqlarına dəyər verilən və hörmət edilən müstəqil türk dövlətidir. Kipr türkləri dünyanın bütün ölkələri ilə dialoqa hazırdır”, – deyə o vurğulayıb.

Dövlət başçısı Azərbaycan stendi ilə tanış olub.

Azərbaycan-ŞKTC Dostluq Cəmiyyəti rəqs qrupunun çıxışı alqışlarla qarşılanıb.

# Vokalçı Elnarə Məmmədovanın Sankt-Peterburqda yubiley gecəsi



Dmitri Şostakoviç adına Sankt-Peterburq Akademik Filarmoniyasının kiçik zalında Azərbaycanın Əməkdar artisti, opera müğənnisi Elnarə Məmmədovanın yubiley vokal gecəsi keçirilib.

Proqramda digər müəlliflərin əsərləri ilə yanaşı, Azərbaycan bəstəkarları Qara Qarayev, Arif Məlikov və Fərhad Bədəlbəylinin əsərləri də yer alıb.

Elnarə Məmmədovanın duetdəki həmkarları Mariinski Teatrının solisti, Tatarıstanın qızıl səsi Yaramir Nizamutdinov və Azərbaycanda sevilən metso-soprano Yana Melikayeva olub.

Vokalçıları royalda Mariinski Teatrının konsertmeysteri Yelena Samarina müşayiət edib.

Konsertdən sonra təəssüratını ifadə edən Elnarə Məmmədova deyib: “Sankt-Peterburqda tamaşaçılar çox ciddidir – Rusiyanın mədəniyyət paytaxtı olması təsadüfi deyil. Çıxışdan sonra tamaşaçılar yanıma gələrək konsertə görə təşəkkür edirdilər. Repertuar fərqli idi. Rusiyalı həmkarlarla da gözəl əməkdaşlıq oldu. Yana Melikayeva ilə çoxdan tanışıq, Yaramir Nizamutdinovla isə bu yaxınlarda tanış olmuşuq. Onlarla əməkdaşlığa görə şadam...”.

## Xronoqraf

# Tarixdə bu gün



Olaylar, faktlar (8 – 10 oktyabr)

### 212 il əvvəl...

**10 oktyabr 1812-ci ildə** Birinci Rusiya-İran müharibəsinin (1894–1813) yekunlarına əhəmiyyətli təsir edən Aslandüz döyüşü baş verib. Döyüşdə qalib gələn ruslar Talış (Lənkəran) xanlığı ərazisinin böyük hissəsini işğal ediblər. Həmin ilin dekabrında Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla Şimali Azərbaycan faktiki olaraq rusların nəzarətinə keçdi.

### 153 il əvvəl...



**8-10 oktyabr 1871-ci ildə** ABŞ-nin Çikaqo şəhərində yanğın baş verib. Tarixə “Böyük Çikaqo yanğını” kimi düşən fəlakət nəticəsində şəhərin mərkəzi də daxil olmaqla təxminən 80 kv km ərazidə 17 minə yaxın tikili zərər görüb, 300-dək insan həlak olub, 100 min nəfər evsiz qalıb.

### 112 il əvvəl...

**9 oktyabr 1912-ci ildə** “Balkan ittifaqı”nda birləşən ölkələrin (Bolqarıstan, Yunanıstan, Serbiya, Çernoqoriya) Osmanlı imperiyasına qarşı müharibəsi başlayıb. Bir neçə əsr Osmanlının tərkibində olan bu ölkələr 1877–1878-ci illərin Balkan müharibəsi nəticəsində nisbi müstəqillik əldə etmişdi. Osmanlı ikinci Balkan savaşında da məğlub oldu və 1913-cü il mayın 30-da Londonda imzalanan sülh sazişi ilə bu əraziləri itirdi.

### 84 il əvvəl...

**8 oktyabr 1940-cı ildə** Hitlerin Avropada işğal yürüşü davam edib. Almaniya qoşunları Rumıniyanı işğal edib, Rumıniya kralı ölkədən qaçıb.

### 62 il əvvəl...

**9 oktyabr 1962-ci ildə** Britaniyanın Şərqi Afrikadakı protektoratı olan Uqanda müstəqilliyini elan edib.

### 56 il əvvəl...

**10 oktyabr 1968-ci ildə** İspaniyanın Mərkəzi Afrikadakı müstəmləkəsi olan Qvineya müstəqilliyini (Ekvatorial Qvineya Respublikası) elan edib.

### 33 il əvvəl...

**9 oktyabr 1991-ci ildə** Ali Sovet “Azərbaycan Respublikanın milli özünümüdafiə qüvvələri haqqında” qanun qəbul edib. 1998-ci ilədək 9 oktyabr Azərbaycanda Ordu Günü kimi qeyd olunurdu. Həmin il Prezident Heydər Əliyevin imzaladığı fərmanla Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun yaranma tarixi (26 iyun 1918-ci il) Silahlı Qüvvələr Günü elan edildi.

### 32 il əvvəl...



**9 oktyabr 1992-ci ildə** Bakıda, “Azadlıq” meydanında Azərbaycan Milli Ordusunun ilk hərbi paradı keçirilib.

### 27 il əvvəl...

**9 oktyabr 1997-ci ildə** Strasburqda Avropa Şurasının sammiti çərçivəsində Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova prezidentlərinin görüşü keçirilib. Regional təhlükəsizlik və əməkdaşlıq sahəsində yeni məşvərətçi formatın – GUAM qrupunun yaradılması qərara alınıb.

### 11 il əvvəl...

**9 oktyabr 2013-cü ildə** Azərbaycanda növbəti prezident seçkiləri keçirilib. MSK-nın məlumatına görə, 10 namizədin iştirak etdiyi seçkidə İlham Əliyev (YAP) 84,55% səs toplayaraq üçüncü müddətə dövlət başçısı seçilib.

**Hazırladı: V.Orxan**

# Kitab sərgisinin “rəngli” qonağı

## Türkiyəli ebru ustasının sənət dərsi

2-8 oktyabr tarixlərində keçirilən X Bakı Beynəlxalq Kitab Sərgisinin xarici qonaqlarından biri də Türkiyədən ölkəmizə təşrif buyuran ebru sənəti ustası Hikmət Barutçugildir. Sənətkarın adı UNESCO tərəfindən 2022-ci ildə ”Dünyanın yaşayan insan xəzinəsi” siyahısına daxil edilib. O, oktyabrın 7-də fəaliyyət göstərdiyi yaradıcılıq istiqaməti üzrə ustad dərsi keçdi.




Sənətkar 51 ildir ebru sənəti ilə məşğul olduğunu bildirdi: “Bu sənətin kökləri çox qədim dövrlərə gedib çıxır. Türküstanda (indiki Qazaxıstan) yaranan sənət Anadoluya qədər gəlib çatıb. XVII əsrdən Avropada türk sənəti kimi tanınmağa başlayıb. Ebru kitab sənətində geniş istifadə edilir. Nəşrlərin üz qabığında, yaxud da ikinci səhifəsində tətbiq olunur. Bu sənət bir neçə onilliklər əvvəl Türkiyədə itib-batmaqda idi. Heç bir qarşılıq güdmədən qəlbimə düşən sənət sevgisi ilə bu işlə məşğul olmağa başladım. Zaman keçdikcə inkişaf edərək ebru rəsmlə birləşdi, daha geniş miqyasda tanındı. Bu gün ebru sənəti miniatürlə, qravürlə birləşib, ölçüləri dəyişib. Dəyişdikcə də müxtəlif tərz və üslubları yaranıb. Hazırda Türkiyədə ebru sənəti ilə məşğul olanların sayının 15 min nəfər olduğu təxmin edilir”.




Hikmət Barutçugil bu sənətlə məşğul olmaqla yanaşı, ebruya dair kitabları, kataloqları da çap olunub: “Bu günə kimi sənətin öyrənilməsi və təbliği məqsədilə 50 kitabım nəşr edilib. İstərdim Azərbaycanda da bu sənəti tanıyıb inkişaf etdirsinlər. Hazırda İstanbulun Memar Sinan Universitetində ebru sənətindən dərs deyirəm. Vaxtilə tələbəsi olmuş Zaur Orucov hazırda burada sənəti yaşadır. Bu sənətlə məşğul olanları “ebruzən” adlandırırlar”.

Sənətkarın bildirir ki, ebru – çağatay dilində “dalğavari”, farsca – “bulud” və ya “suyun üzü”, ərəbcə isə “üz üçün su” mənalarını verir. Hazırda ebru türk sənəti adı ilə Avropada da tanınır.

Sərgi çərçivəsində ebru sənətinə həm sərgini ziyarət edən şagirdlərin, həm də böyüklərin marağını gördük. Hazırda Azərbaycanda da bu sənəti təbliğ edən sənətkarlar var. İncəliyi, rənglərin harmoniyası ilə diqqət cəlb edən ebru sanki su üzərində rənglərin rəqsi və bu rəqsdən pərvazlanan ilhamı əks etdirir.

**Lalə Azəri**

# Texas Universitetində azərbaycanlı dirijorun konserti

Texas Universitetində ABŞ-də yaşayan azərbaycanlı dirijor Fərhad Xudiyevin konserti olub.



Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, Fərhad Xudiyevin dirijorluğu ilə Texas Universiteti Simfonik Orkestri dahi Azərbaycan bəstəkarı Qara Qarayevin “Yeddi gözəl” baletindən parçaları, eləcə də Donald Grantham və İqor Stravinskinin əsərlərini ifa edib.

F.Xudiyev 2010–2011-ci illərdə Konnektikut, 2011–2012-ci illərdə Nyu-Cersi orkestrlərində dirijorluq edib. 2012-ci ildən 2020-ci ilədək Kaliforniyada Gənclərin Musiqi Orkestrində baş dirijor və musiqi direktoru vəzifəsində çalışıb. Hazırda Texas Universitetində dirijorluq sənətini tədris etməklə yanaşı, simfonik orkestrin musiqi rəhbəridir. Həmvətənimiz müxtəlif ölkələrin orkestrləri ilə də çıxış edir.

Xatırladaq ki, bu il aprelin 12-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Fərhad Xudiyevin dirijorluğu ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin “Musiqi körpüsü: ABŞ-Azərbaycan” adlı konserti keçirilib.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 2353
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641